

# Hörmətli oxucular!

***Jurnalımızı ölkəmizin prezidenti Heydər Əliyevin gənclərə, təhsil işçilərinə ünvanlanan müdrik kəlamları ilə açırıq.***

***Bu saydakı materialların məzmunu ilə həmahəng olan bu hikmətli sözlər, nəsihətlər gənclərimiz, müəllimlərimiz və ümumiyyətlə, hər birimiz üçün örnək olmalıdır.***

**M**əktəb illəri hər bir insanın gələcək həyatında ən mə'suliyyətli, ən əhəmiyyətli, ən dəyərli illərdir. Ona görə də bizim övladlarımıza, balalarımıza, bu gün məktəbə qədəm qoyan uşaqlara, məktəblərdə oxuyan bütün gənclərə, imtahan verib ali məktəblərə daxil olan tələbələrə tövsiyə edirəm ki, bu illərdən, günlərdən səmərəli istifadə etsinlər, onları itirməsinlər. Dünən nə isə itirdinizsə, bu gün onun yerini doldura bilməyəcəksiniz. Keçən il nə isə itirdiniz, bu il onun yerini doldura bilməyəcəksiniz.

* * *

**B**iz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik. Ona görə də müəllimlər gərək yerlərində saymasınlar, nə qədər təcrübəli olsalar da, daim öz biliklərini artırsınlar. Çünki dünya çox dinamik inkişafdadır. Bu dinamik inkişaf dünyada sür'ətlə yeniliklər meydana çıxarır. Ona görə də, təbiidir, müəllim 10-15-20 il bundan önçəki səviyyəsi ilə bizim bugünkü yüksək təhsilimizi tə'min edə bilməz. Gərək müəllim öz üzərində daim işləsin, dünyanın texniki, elmi tərəqqi nailiyyətlərindən xəbərdar olsun və onları tələbələrə, gənclərə, uşaqlara çatdırsın.

* * *

**H**ər bir ailənin, hər bir valideynin bütün başqa qayğılardan ən böyük qayğısı öz uşaqlarını Azərbaycanın sağlam, bilikli, yüksək mə'nəviyyatlı vətəndaşları kimi böyütməkdir.
Bu gün məktəbə gedən uşaqlar Azərbaycanın vətəndaşı - yüksək mə'nada vətəndaş, yüksək biliyə malik olan vətəndaş, yüksək əxlaqa malik olan vətəndaş olmalıdırlar. Arzu edirəm ki, valideynlər bu işlərə daha da çox diqqət yetirsinlər və qayğı göstərsinlər.

* * *

**D**il hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini - Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik.

* * *

**A**zərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarixi deyil, bizim zəngin ədəbiyyatımızı da bilməlidirlər... Ədəbiyyatımız həm bizim tariximizdir, həm mə'nəviyyatımız, həm də milli mənliyimizdir.

* * *

**Ç**adır şəhərciklərində məktəblər yaranıbdır... Əgər o çadır şəhərciklərində yaşayan ailələr öz uşaqlarını mütləq məktəbə cəlb edirlərsə, oxudurlarsa, təhsil verirlərsə, onlar ən yüksək qiymətə layiqdirlər. Ona görə də dövlət, hökumət, hər bir dövlət orqanı , Təhsil Nazirliyi, respublikanın bütün təhsil idarələrinin hamısı yerindən-yurdundan didərgin, köçkün düşmüş ailələrin uşaqlarının oxumasını birinci növbədə xüsusi nəzarət altına almalıdırlar. Həmin məktəblərə xüsusi qayğı göstərməlidirlər, onlara əlavə yardımlar etməlidirlər. Çünki biz imkan verə bilmərik ki, bu qədər köçkünlük həyatı yaşayan xalqımızın bir hissəsinin uşaqları məktəbsiz, savadsız qalsın. Biz buna yol verə bilmərik.

* * *

**B**iz bugünkü gənclərə çox yüksək amallara, mə'nəvi keyfiyyətlərə, yüksək iqtisadi potensiala malik olan dövlət, ölkə əmanət edəcəyik. Ancaq bu işləri gələcəkdə aparmaq üçün daha da biliklənmək, elmə malik olmaq lazımdır. Bu isə sizin, bizim, hamımızın vəzifəsidir.

* * *

**Ə**min ola bilərsiniz ki, Azərbaycanın bugünkü gəncləri gələcəkdə ölkəmizi idarə edənlər, Azərbaycanı irəli aparanlar olacaqlar. Bizim isə borcumuz bugünkü gənclər üçün güclü, qüdrətli, iqtisadi cəhətdən inkişaf etmiş elə dövlət, cəmiyyət yaratmaq və xalqın rifah halını o qədər yüksəltməkdir ki, onlar biz indi çəkdiyimiz çətinlikləri çəkməsinlər.

## *Gənc dostlar!*

*2000-ci il Sizin həyatınızda ən əlamətdar və yadda qalan illərdən olacaq. Axı Siz məhz bu il tələbə adını qazanmısınız. Mən də bu gün böyük sevinc, fərəh və iftixar hissi ilə Sizi- qəbul imtahanlarında ən yüksək bilik nümayiş etdirmiş müstəqil respublikamızın ləyaqətli övladlarını, gənc həmvətənlərimizi ürəkdən təbrik edir, ömrünüzün ən şərəfli, ən mə'nalı və ən məs'uliyyətli dövrü olan tələbəlik illərini də uğurla və alnıaçıq başa vurmağınızı arzulayıram.*

*Elmlərin sirlərinə yiyələnmək, ali təhsil almaq vətənimizdə böyük şərəf işi sayılır. Siz xoşbəxtsiniz ki, belə bir lazımlı, şərəfli yolun başlanğıcındasınız. Siz ölkəmizin gələcəyini yaradanlar, elm və iqtisadiyyatını milli əsaslar üzrə yüksəldənlər, ucaldanlar olacaqsınız. Əlbəttə, bunlar asanlıqla başa gəlməyəcək. Sizdən bundan sonra da inadla, vicdanla çalışmaq, yorulmadan işləmək, həyat yollarınızda qarşılaşacağınız çətinlikləri kişi dözümü ilə aradan qaldırmaq tələb olunur. Əminəm, Siz necə ki qəbul imtahanlarında ən yüksək zirvəni fəth etmisiniz, eləcə də bu çətin və məs'ul vəzifələri uğurla yerinə yetirəcəksiniz. Axı Siz çox gözəl bilirsiniz ki, cəmiyyətdə mükəmməl ali təhsilsiz, ixtisassız layiqli yer tutmaq, şərəfli ad qazanmaq olduqca çətin bir işdir. Yeni dövr üçün, yeni cəmiyyət üçün kamil, bütün müasir bilik və texnologiyalara yiyələnmiş mütəxəssislər gərəkdir.*

*Bu il 600-dən yüksək bal toplayaraq rekord nəticə göstərmiş gənclərimizin sayı 267 nəfərdir. Belə gənclərimizin sayının ilbəil artması bizi son dərəcə fərəhləndirir. Bizi bu həqiqətə bir daha inandırır ki, vətənimizin, dövlətimizin və millətimizin gələcəyi e'tibarlı əllərdə olacaq. Biz Sizin kimi ləyaqətli, qeyrətli gənclərimizlə fəxr edə bilərik.*

*Əziz və hörmətli tələbələr! 2000-ci ilin bilik yarışının öncülləri! Əmin olun ki, gələcəkdə də dövlətimiz və təhsil ictimaiyyətimizin qayğısı Sizin üstünüzdən əskik olmayacaq! Sizə göstərilən qayğı yalnız Siz tələbələrin xoşbəxtliyi naminə deyil, eyni zamanda cəmiyyətimizin, vətənimizin, müstəqil dövlətimizin uğurlu gələcəyi, inkişafı naminədir.*

*Jurnalımızın bu sayında Sizin- bilik yarışının öncüllərinin fotoları və haqqında yığcam mə'lumatlar verilir. Bunlarla tanış olmaq, şübhəsiz ki, həm bu günün tələbələri, həm də gələcək abituriyentlər üçün olduqca maraqlı və yaddaqalan olacaq. Siz onlar üçün bir örnək olacaqsınız. Haqqınızda belə bir nəfis jurnalın çapı bir tərəfdən Sizi ictimaiyyətə təqdim etmək, təhsilə daha da həvəsləndirməkdirsə, digər tərəfdən isə bu, təhsil ictimaiyyətinin Sizə olan böyük ümidlərinin ifadəsidir. İnanırıq ki, bununla Sizin məs'uliyyətiniz birə beş artacaq, bundan sonra da öncül olacaq, yaxşı mütəxəssis kimi yetişib vətənimizə, xalqımıza ləyaqətlə xidmət göstərəcəksiniz.*

*Jurnalımızın bu sayı Sizin özünüz üçün də bir xatirə kitabı olacaq. Ümidvarıq ki, burada təqdim olunan gənclər gələcəkdə dövlət strukturlarında ən şərəfli pillələrdə fəaliyyət göstərən şəxslər olacaqlar. Ən yaxşı diplomat, ən ləyaqətli müəllim, tanınmış hüquqşünas, bacarıqlı həkim, mühəndis, iqtisadçılar da Sizin sıranızdan çıxacaq. Sizlərdən nazir, şirkət rəhbəri, hətta dövlət başçısı da olacaq. Onda bu jurnal indiki gəncliyin-müasirlərinizin yaddaşı kimi daha böyük maraq kəsb edəcəkdir.*

*Sizə ə'la təhsil və möhkəm can sağlığı arzusu ilə!*

**TQDK-nın sədri**
**t.e.n. M.M. Abbaszadə**

# ƏZİZ OXUCULAR!

*Respublikanın ali məktəblərinə yüksək balla qəbul olan gənclərlə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında, ali məktəblərdə, mətbuat səhifələrində, televiziya ekranlarında görüşlər keçirilməsi, onların ictimaiyyətə tanıdılması, mükafatlandırılması son illərin dəyərli ən'ənələrindəndir. Gördüyünüz şəkillərdə həmin görüşlərdən müəyyən məqamlar əks etdirilib. «Abituriyent» jurnalı isə ənənəvi olaraq hər il özünün ayrıca bir sayını bilik yarışının öncüllərinə həsr edir. Sevindirici haldır ki, belə gənclərin sayı keçən illə müqayisədə bu il təqribən 2 dəfə artaraq 267 nəfərə çatmışdır. Onların hər birinin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi orta məktəb, ailə tərkibi və valideynlərinin məşğuliyyəti haqqında mə'lumatları Sizə təqdim edirik. Hər qrup üzrə ən yüksək bal toplayan ilk dörd nəfərə isə aşağıdakı suallarla müraciət edib geniş müsahibə də hazırlamışıq.*

*Buyurun, bilik yarışının öncülləri haqqında mə'lumatlar və müsahibələrlə tanış olun.*

**[1]** **Ali məktəbə qəbul olmaq istəyinizin əsas səbəbi nədən ibarətdir?**

**[2]** **Hansı me'yarlar əsasında bu ixtisası seçmisiniz? İxtisas seçimində Sizə kimin və nəyin tə'siri olub? Bu məsələdə Sizinlə valideynlərinizin rə'yi uyğun olub, ya yox?**

**[3]** **Elə bir ixtisas varmı ki, Siz onu ərizənizdə ilk yerdə göstərmək istəyərdiniz, lakin o, müraciət etdiyiniz qrupun ixtisaslar siyahısında olmayıb?**

**[4]** **Test sistemində abituriyentə 15 ixtisas seçmək imkanı verilməsinə münasibətiniz? Müsbətdir ya mənfi? Nə üçün?**

**[5]** **Ərizənizdə neçə ixtisas göstərmişdiniz? Əgər indi tələbəsi olduğunuz ixtisasa qəbul olmasaydınız, daha hansı ixtisasa və ya ixtisaslara daxil olmaq istəyərdiniz?**

**[6]** **İndi oxuduğunuz ixtisasa qəbul olmağınızdan peşiman deyilsiniz?**

**[7]** **İmtahan təcrübəsinə əsasən, qəbul üçün keçid balı kifayət qədər yüksək olan ixtisas seçmisiniz. Bunu əvvəlcədən bilirdinizmi, əgər bilirdinizsə, hansı mülahizə və qənaətlə bu ixtisası seçdiniz, yəni müsabiqənin yüksəkliyi ehtimalı sizi nə əcəb fikrinizdən döndərmədi?**

**[8]** **Yüksək bal toplayacağınıza əvvəlcədən inanırdınızmı?**

**[9]** **Qəbul olduğunuzu bilərkən hansı hissləri keçirdiniz: sevinc, fərəh, təəccüb...?**

**[10]** **İmtahandan sonra test kitabçalarının Sizə paylanmasına və onların düzgün cavablarının qəbulun nəticələri e'lan olunana qədər çap edilməsinə münasibətiniz necədir?**

**[11]** **Qəbul imtahanında belə yüksək nəticə əldə etməyinizin sirri-səbəbi nədən ibarətdir və buna görə ən çox kimə minnətdarsınız? Özünüzə, müəllimlərinizə, yoxsa valideynlərinizə?**

**[12]** **Qəbul imtahanlarına nə vaxtdan hazırlaşmağa başlamısınız? Və bu zaman hazırlığın hansı formalarından (fərdi - müstəqil, repetitorla, hazırlıq kurslarının köməyi ilə] istifadə etmisiniz?**









[13] İmtahana hazırlıq zamanı dərsliklərdən əlavə hansı materiallardan istifadə etmisiniz?

[14] Qəbula hazırlaşmağınızda «Abituriyent» jurnalının rolu barədə nə deyə bilərsiniz?

[15] Abituriyentin test üsulu ilə imtahanın texnologiyasına bələd olmasının hansı üstünlükləri vardır və bu cəhətdən sınaq imtahanlarının faydası nədən ibarətdir?

[16] Test imtahanlarında tətbiq olunan dörd variantlılığa münasibətiniz? Bu, nə dərəcədə zəruri və əhəmiyyətlidir?

[17] Qəbul imtahanlarına daxil edilən test suallarından məktəb proqramına uyğun gəlməyəni və ya dərsliklərdə olmayanı var idimi? Onların içərisində mübahisəli, müxtəlif cür yozula bilən məsələlərə, mövzulara aid suallarla rastlaşdınızmı?

[18] İmtahan üçün ayrılan vaxtdan necə istifadə etdiniz? Onu necə böldünüz? Vaxt kifayət etdimi? Vaxt çatışmazlığı problemi ilə rastlaşdınızmı? Bütövlükdə 4 fənn üzrə suallara cavab vermək üçün Siz nə qədər vaxt sərf etdiniz? Sizcə, imtahan vaxtından necə daha səmərəli istifadə etmək lazımdır? Bunlarla bağlı öz təcrübənizi gələcək abituriyentlərlə bölüşün.

[19] Qəbul imtahanının test üsulu ilə keçirilməsi Sizə öz biliyinizi nümayiş etdirməyə nə dərəcədə imkan verdi? Bu baxımdan Sizcə, test imtahanının üstün cəhətləri nədən ibarətdir?

[20] Qəbul imtahanının gedişindən razı qaldınızmı? İmtahanda abituriyentlərin işləməsi üçün şərait necə idi? İmtahanın normal gedişinə mane olan hansı halları göstərərdiniz? Qəbulla bağlı hansı irad və təklifləriniz var?

[21] Ali məktəblərə qəbulla bağlı şaiyələrə, xüsusən də nüfuzlu ixtisaslara guya yalnız imkanlı ailələrdən olan uşaqların qəbul ola bilməsi barədəki söz-söhbətlərə münasibətiniz?

[22] Test imtahanı ali məktəbə qəbulda əhalinin müxtəlif təbəqələrini təmsil edən abituriyentlər üçün bərabər imkanlar tə'min edirmi?

[23] Fikrinizcə, test üsulu ilə qəbul imtahanını əsl bilik yarışı hesab etmək olarmı? Ya Sizin bu məsələyə münasibətiniz fərqlidir?

[24] Orta məktəbdəki tədris Sizi qane edirdimi, bu barədə fikriniz? Biliklərə dərindən yiyələnməyinizdə bütövlükdə məktəbin və Sizə dərs deyən fənn müəllimlərinin rolunu necə səciyyələndirərdiniz?

[25] Təhsil almağa başladığınız ali məktəbdə tədrisin səviyyəsi Sizin gözlədiyiniz səviyyəyə uyğun gəlirmi? Ümumiyyətlə, tələbəlik həyatında hansı qayğı, problem və çətinliklərlə rastlaşırsınız?

[26] Fikrinizcə yaxşı təhsil almadan, hazırlıqlı mütəxəssis olmadan müasir həyatda layiqli mövqe tutmaq, uğur qazanmaq mümkündürmü?

[27] Ali məktəbi bitirdikdən sonra harada işləməyi, öz potensial imkanlarınızı harada reallaşdırmağı arzulayırsınız: vətəndə, yoxsa hər hansı xarici ölkədə?

[28] Ali məktəbə daxil olmaq istəyən gənclərə məsləhətiniz, tövsiyəniz?

[29] Siz özünüz-özünüzə, gələcək abituriyentlərə, qəbul olanlara və olmayanlara, yüksək ballılara bizim vermədiyimiz daha hansı sualı (sualları) verərdiniz?









# I QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



***ELÇİN XANKİŞİYEV***

Yasamal rayonu 286 saylı orta məktəbin mə'zunudur.
671,666 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.

Ailələri 4 nəfərdən ibarətdir.
*Atası* – Zakir Xankişiyev BDU-nun dosentidir.
*Anası* – Xanım Abdullayeva Yasamal rayonu 19 saylı poliklinikanın sahə həkimidir.

**1.** Yüksək ixtisaslı mütəxəssis olmaq.
**2.** Texniki ixtisaslara marağım böyük olduğuna görə bu ixtisası seçmişəm və bu seçimdə valideynlərim ilə mənim rə'yim uyğun olub.
**3.** İstədiyim ixtisası birinci yerdə göstərmişdim və bu ixtisasa da qəbul oldum.
**4.** Münasibətim nə müsbətdir, nə də mənfi.
**5.** Ərizədə 12 ixtisas göstərmişdim. İndi tələbəsi olduğum ixtisasa qəbul olmasaydım, ərizədə yazdığım ikinci ixtisasa daxil olmaq istəyərdim.
**6.** Qətiyyən yox!
**7.** Seçdiyim ixtisasa qəbul olunmaq üçün yüksək bal yığmaq lazım olduğunu qabaqcadan bilirdim və ona da inanırdım ki, bu ixtisasa mütləq qəbul olacağam.
**8.** İmtahanqabağı TQDK-da keçirilmiş sınaq imtahanlarında iştirak etməyim məni buna inandırdı.
**9.** Sevinc hissi.
**10.** Münasibətim müsbətdir.
**11.** Müəllimlərimə, valideynlərimə və «Şirvan» hazırlıq kursunda mənə dərs deyən BDU-nun müəllimlərinə minnətdaram.
**12.** Birinci sinifdən. XI sinifdə oxuyarkən «Şirvan» hazırlıq kursunun köməyindən istifadə etmişəm.
**13.** Dərsliklərdən əlavə müxtəlif test toplularından və «Abituriyent» jurnalından istifadə etmişəm.
**14.** «Abituriyent» jurnalının imtahanlara hazırlaşma dövründə rolu çox böyükdür.
**15.** Bu, abituriyentə imtahana texniki və psixoloji cəhətdən daha yaxşı hazırlaşmaqda kömək edir, sınaq imtahanları isə onda bu inamı artırır.
**16.** Bu, olduqca zəruridir.
**17.** Test sualları içərisində məktəb proqramına uyğun gəlməyəni yox idi.
**18.** Vaxt kifayət etdi. Məncə, dörd fənn üzrə suallara cavab vermək üçün üç saat bəsdir.
**19.** İmtahanda yığılan ballar biliyin göstəricisidir.
**20.** Qəbul imtahanının gedişindən razı qaldım. İmtahana mane olan heç bir halla rastlaşmadım.
**21.** Belə söz-söhbətlər az inandırıcıdır.
**22.** Test imtahanı abituriyentlər üçün bərabər imkanlar tə'min edir.
**23.** Bəli, test imtahanı əsl bilik yarışıdır.
**24.** Tam qane edirdi. Bə'zi müəllimlərin rolunu xüsusilə yüksək qiymətləndirirəm.
**25.** Təhsil almağa başladığım ali məktəbdə tədrisin səviyyəsi yüksəkdir. Tələbəlik həyatına yavaş-yavaş alışıram.
**26.** Mükəmməl təhsil almadan yaxşı mütəxəssis olmaq mümkün deyil və bunların da heç biri olmadan həyatda həqiqi hörmət qazanmaq olmaz.
**27.** Vətəndə. Əgər vətəndə potensial imkanı reallaşdırmaq mümkün olmazsa, onda xarici ölkədə.
**28.** Oxumağa, çalışmağa, zəhmət çəkməyə güvənin.
**29.** Heç bir sualım yoxdur.



***ANNA MALOVA***

Bakı şəhəri, Sabunçu rayon 72 saylı orta məktəbin mə'zunudur. 664,999 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.

Ailələri 3 nəfərdən ibarətdir.
*Atası* – Yevqeni Malov Rusiyanın Azərbaycandakı səfirliyinin əməkdaşıdır.
*Anası* – Olqa Malova "NİKoyl" şirkətində proqramçı işləyir.

**1.** Ali məktəbə qəbul olmağımın əsas məqsədi seçdiyim sahədə biliklərimi genişləndirmək və müasir ixtisasa yiyələnməkdir.

**2.** Hesab edirəm ki, seçdiyim ixtisas müasir cəmiyyətin bütün sahələrində fəaliyyət üçün geniş imkanlar yaradır. İxtisas seçimində valideynlərimlə mənim fikirlərim tamamilə eyni olub.

**3.** Xeyr.

**4.** Müsbətdir. Mənə elə gəlir ki, 15–dək ixtisas seçimi ali məktəbə qəbul olmaq istəyənlərə geniş imkanlar verir.

**5.** Mən ərizədə 7 ixtisas göstərmişdim. Ancaq yalnız BDU-nun tətbiqi riyaziyyat ixtisasına qəbul olmaq istəyirdim.

**6.** Qətiyyən yox.

**7.** Bəli, mən bilirdim ki, seçdiyim ixtisasa keçid balı yüksəkdir. Bununla belə özümə, öz biliyimə arxalandığım, inandığım üçün bu seçimi etdim.

**8.** 100 faiz əmin olmaq mümkün deyil, ancaq özünə, öz gücünə inanmaqla çox şeyə nail olmaq olar.

**9.** Keçirdiyim ilk hiss hədsiz sevinc hissləri oldu. Əlbəttə, həm də qürur, fərəh hissləri ilə yaşadım. Ona görə sevindim ki, mənim ən böyük arzum yerinə yetmişdi. Ona görə qürur hissi keçirdim ki, mən bu uğura xalis təsadüf nəticəsində yox, gərgin zəhmətim sayəsində nail olmuşdum.

**10.** İmtahandan sonra test kitabçalarının paylanması və düzgün cavabların çap edilməsi mənim çox xoşuma gəldi. Axı sual kitabçasını və düzgün cavabları aldıqdan sonra biz cavablarımızı yoxlamaq, ballarımızı hesablamaq imkanı qazandıq. İmtahanın nəticələrini gözləmək nigarançılığımıza, narahatlığımıza son qoyuldu. Və ən başlıcası, bununla biz qəbul imtahanının obyektiv, ədalətli və düzgün keçirilməsinə əmin olduq, inandıq.

**11.** Ən çox valideynlərimə minnətdaram: mə'nəvi dəstəyə, böyük qayğıya görə. Sözsüz ki, müəllimlərimə də hədsiz dərəcədə minnətdaram. Məhz onların köməyi, zəhməti mənə proqram materialını mənimsəməyə və test tapşırıqlarını uğurla həll etməyə imkan verdi. Özümdən isə ona görə razıyam ki, vacib məqamda qüvvələrimi səfərbər edə bildim, imtahanda özümü itirmədim.

**12.** Qəbul imtahanlarına bir il ərzində əvvəlcə 2, sonra 4 müəllimlə hazırlaşmışam. Ancaq fərdi hazırlaşmağa daha çox üstünlük vermişəm.

**13.** Qəbula hazırlıq prosesində dərsliklərdən əlavə istifadə etdiyim əsas material «Abituriyent» jurnalının sayları idi.

**14.** «Abituriyent» jurnalının rolu, əlbəttə, çox böyükdür. Bu jurnal olmasa, qəbula hazırlıq xeyli çətin, mürəkkəb və az məhsuldar olardı.

**15.** Abituriyentin test üsulu ilə imtahanın texnologiyasına bələd olması ona imtahan zamanı daha çevik istiqamət götürməyə və vaxtdan səmərəli istifadə etməyə imkan verir. Sınaq imtahanları isə öz çatışmazlıqlarını görməyə və onları vaxtında aradan qaldırmağa kömək edir.

**16.** Qəbul imtahanlarında test tapşırıqlarının 4 variantda olması abituriyentlərin biliklərini düzgün və obyektiv qiymətləndirməyə imkan verir.

**17.** Xeyr. Yox idi.

**18.** Vaxtımın əsas hissəsini öz qrupuma aid olan əsas fənlərə – riyaziyyata və fizikaya verdim. Ümumiyyətlə, verilən vaxt 4 fənn üzrə test tapşırıqlarının həlli üçün tamamilə kifayətdir.

**19.** Test üsulu ilə keçirilən qəbul imtahanı hər bir fənni dərindən bilməyi və test suallarına dəqiq cavab verməyi tələb edir.

**20.** İmtahanın gedişindən razı qaldım, ona mane olan amillər yox idi.

**21.** Mənə elə gəlir ki, bu şaiyələrin heç bir əsası yoxdur.

**22.** Bəli, bütün abituriyentlər üçün eyni şərait mövcud olur.

**23.** Test sistemi abituriyentdən imtahan verdiyi fənlər üzrə materialları tam bilməyi tələb edir. Bu mə'nada test imtahanını bilənlərin yarışı, müsabiqəsi hesab etmək olar.

**24.** Məktəb tədrisi ali məktəbə girmək üçün təqribən 50 faiz bilik verir. Qalanını gərək özün qazanasan. Mən mənimsədiyim dərin biliyə görə oxuduğum orta məktəbə və müəllimlərimə minnətdaram.

**25.** Qəbul olduğum ali məktəbdəki tədrisin səviyyəsi məni tamamilə qane edir.

**26.** Yüksək nüfuz və hörmət qazanmaq üçün, yaxşı mütəxəssis olmaq üçün mükəmməl təhsil almaq lazımdır.

**27.** Ali məktəbi bitirdikdən sonra öz vətənimdə işləmək istəyirəm.

**28.** Məsləhətim budur: özünüzə və biliyinizə inanın!

**29.** Siz verdiyiniz suallardan əlavə heç bir sual verməyə ehtiyac duymuram.



***RUSLAN SİLYAEV***

Bakı şəhəri, Nəsimi rayon 1 saylı orta məktəbin mə'zunudur.
653,333 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.

*Atası* – Oleq Silyaev işləmir.
*Anası* – Səlbinaz Abdullayeva işləmir.

**1.** Təhsilli və yüksək ixtisaslı mütəxəssis olmaq arzusu.

**2.** Kompüter texnologiyası elmdə çox perspektivli bir sahə olduğuna görə mən bu ixtisası seçmişəm. Valideynlərimin ixtisas seçimimdə heç bir rolları olmayıb.

**3.** Belə ixtisas yox idi.

**4.** Çox müsbət münasibət bəsləyirəm, çünki bu, ali məktəbə qəbul şansını artırır.

**5.** Ərizədə 15 ixtisas göstərmişdim. Bu ixtisasa qəbul olmasaydım, informatika və hesablama texnikası ixtisasına üstünlük verərdim.

**6.** Xeyr, seçdiyim ixtisasdan peşman deyiləm.

**7.** Bəli, bilirdim ki, bu ixtisasa keçid balı yüksək olacaq. Bununla belə bu ixtisası ərizədə birinci yerdə göstərmişdim.

**8.** Yüksək bal toplayacağıma inanırdım.

**9.** Sevinc və fərəh hissləri keçirdim.

**10.** Müsbət.

**11.** Yüksək nəticənin səbəbi yüksək dərəcədə hazırlaşmağımdır. Bunun üçün də valideynlərimə minnətdaram.

**12.** Qəbula sentyabr ayından başlayaraq həm fərdi qaydada, həm də müəllimlərlə hazırlaşmışam.

**13.** Fənləri daha dərindən öyrənmək üçün lazım bildiyim bütün materiallardan istifadə etmişəm.

**14.** «Abituriyent» jurnalı qəbula hazırlaşanlar üçün əvəzsiz bir bələdçidir. Jurnal qəbul proqramlarını və digər metodiki materialları çap etməklə abituriyentlərə imtahana daha səmərəli hazırlaşmaqda kömək edir.

**15.** Abituriyentlərə test imtahanlarının texnologiyasını bilmək vacibdir. Sınaq testləri isə qəbul imtahanları üçün bir növ hazırlıq mərhələsidir.

**16.** Bu sualın mənim üçün prinsipial əhəmiyyəti yoxdur.

**17.** Test tapşırıqlarında məktəb proqramı və dərsliklərdən kənar suallarla rastlaşmadım.

**18.** Ayrılan vaxt imtahan tapşırıqlarını həll etmək üçün kifayət etdi. Hesab edirəm ki, vaxtı məxsusi bölmək lazım deyil. Əsas məsələ sualların mahiyyətini anlamaqdır.

**19.** Test imtahanı öz biliyini nümayiş etdirməyə tam imkan verir.

**20.** Qəbul imtahanlarının gedişindən və təşkilindən çox razı qaldım.

**21.** Hazırkı dövrdə abituriyentlərin ali məktəbə qəbul olması üçün geniş imkanlar yaradılıb. Ailənin maddi imkanının bu məsələdə heç bir rolu yoxdur.

**22.** Test imtahanında hamı üçün şərait eyni olur.

**23.** Bəli, olar.
**24.** Məni tə'min etmir. Orta məktəbdə müəllimlər az bilik verir.
**25.** Bəli, uyğun gəlir. Hələlik heç bir çətinliklə qarşılaşmıram.
**26.** Mümkün deyil.
**27.** Xarici dövlətlərdə yaşamaq və işləmək haqqında fikirləşmirəm.
**28.** Qəbula hazırlaşanlara məsləhətim sistemli, ardıcıl məşğul olmaqdır.
**29.** Əlavə sualım yoxdur.

---



***PƏRVİZ KƏRİMOV***
Nizami rayonu 289 saylı «Zəngi» liseyinin mə'zunudur.
652,500 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.

Ailələri 5 nəfərdən ibarətdir.
*Atası* – İsrail Kərimov Mərkəzi Universal Mağazada baş mühasibin müavinidir.
*Anası* – Fəridə Kərimova Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutunda böyük elmi işçidir.

**1.** Yaxşı mütəxəssis kimi yetişmək, xalqımıza, vətənimizə layiqli övlad olmaq.
**2.** İxtisas seçimində mənə müəllimlərimin və valideynlərimin tə'siri olub.
**3.** Elə bir ixtisas yoxdur.
**4.** Test sistemində abituriyentə 15 ixtisas seçmək imkanı verilməsinə münasibətim müsbətdir.
**5.** 15 ixtisas. Amma qəbul olduğum ixtisasdan başqa heç birində oxumaq istəməzdim.
**6.** Xeyr, peşman deyiləm.
**7.** Bəli, bilirdim, amma fikrimdən dönmədim.
**8.** Bəli, inanırdım.
**9.** Sevinc.
**10.** Münasibətim müsbətdir. Çünki müsabiqənin nəticələri e'lan olunana qədər abituriyentlərin öz imtahan göstəriciləri haqqında müəyyən qədər mə'lumatları olur.
**11.** Bunun sirri-səbəbi riyaziyyat və fizika fənlərinə böyük həvəsimin olması və bunları dərindən öyrənməyə çalışmağımdır. Buna görə ən çox müəllimlərimə və valideynlərimə minnətdaram.
**12.** Qəbul imtahanlarına yanvar ayından hazırlaşmağa başlamışam. Bu zaman həm fərdi-müstəqil, həm də repetitorla hazırlaşmışam.
**13.** Dərsliklərdən əlavə «Abituriyent» jurnalının xüsusi buraxılışı olan test toplularından istifadə etmişəm.
**14.** «Abituriyent» jurnalının rolu ondan ibarətdir ki, test üsulu ilə imtahanın texnologiyası ilə tanış olmaqda mənə bələdçilik edib. Sistemli və proqram üzrə hazırlaşmağıma müsbət tə'sir göstərib.
**15.** Testin texnologiyasına bələd olan abituriyent imtahana daha hazırlıqlı olur. Sınaq imtahanlarının bu cəhətdən faydası çox böyükdür.
**16.** Test imtahanlarında tətbiq olunan dördvariantlılığa münasibətim müsbətdir. Bu, abituriyentlərin bir-birinə mane olmadan sərbəst işləməsi üçün əhəmiyyətlidir.
**17.** Xeyr, yox idi.
**18.** Hər fənnə 45 dəqiqə vaxt nəzərdə tutmuşdum. Lakin imtahan zamanı riyaziyyat və fizika fənlərinin hər birinə 20 dəqiqə, Azərbaycan dili və ədəbiyyatı və kimya fənlərinin hər birinə 25 dəqiqə vaxt sərf etdim.
**19.** Test imtahanlarının üstün cəhətlərindən biri də odur ki, abituriyentin biliyi düzgün müəyyənləşdirilir və o, öz səviyyəsinə uyğun ixtisasa qəbul ola bilir.
**20.** Bəli, abituriyentlərin işləməsi üçün şərait yaxşı idi. Qəbulla bağlı əsas təklifim budur ki, gələcək qəbul imtahanlarında 4 səhv cavabın 1 düzgün cavabı aparması qaydası ləğv olunsun.
**21.** Belə söz-söhbətlərə heç qulaq asmıram.
**22.** Bəli.

**23.** Müəyyən qədər. Elə ola bilər ki, bərabər dərəcədə yüksək bal toplamış iki abituriyentdən biri digərindən daha yüksək biliyə malikdir və bunu dəqiqləşdirmək tələb olunur. Nə etməli? Məncə, bunu da əlavə test imtahanı vasitəsilə müəyyən etmək olar.

**24.** Orta məktəbdəki tədris məni qane edirdi. Biliklərə yiyələnməkdə mənə dərs deyən müəllimlərin rolu çox böyükdür.

**25.** Müəyyən qədər uyğun gəlir. Ümumiyyətlə, tələbələrin əsas çətinliklərindən biri dərslik çatışmazlığıdır.

**26.** Bəli, yaxşı təhsil almadan, hazırlıqlı mütəxəssis olmadan müasir dünyada uğur qazanmaq mümkün deyildir.

**27.** Əlbəttə ki, Vətənimdə.

**28.** Gələcək abituriyentlərə məsləhətim budur ki, imtahan verəcəyi 4 fənni daha mükəmməl öyrənsinlər. Çünki müasir dünyada biliksiz, savadsız yaşamağın mə'nası yoxdur.

**29.** Yoxdur.



**ADNAN AXUNDOV**

*Nizami rayonu 242 saylı orta məktəbin mə'zunudur. 647.499 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası – Fariz Axundov 1 saylı psixiatriya xəstəxanasında həkim-psixiatr vəzifəsində işləyir. Anası – İradə Axundova Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunda həkimdir.*



**FİKRƏT MİSİRLİ**

*Yevlax şəhəri 15 saylı dəmiryol orta məktəbinin mə'zunudur. 643.333 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Atası – Vaqif Misirli Yevlax şəhər 15 saylı orta məktəbdə müəllim işləyir. Anası – Simuzər Həsənova Yevlax şəhər 1 saylı orta məktəbdə müəllim işləyir.*



**TACƏDDİN ƏFƏNDİYEV**

*Xətai rayonu 27 saylı orta məktəbin mə'zunudur. 642.499 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Fərid Əfəndiyev Kənd Təsərrüfatı Nazirliyində baş mütəxəssisdir. Anası – Solmaz Əfəndiyeva işləmir.*



**RODİON QAKALO**

*Binəqədi rayonu 102 saylı orta məktəbin mə'zunudur. 641.668 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası - İvan Qakalo işləmir. Anası – Qalina Qakalo «Qönçə» firmasinda iqtisadçıdır.*



**CƏFƏR ƏSƏDOV**

*Nərimanov rayonu 178 saylı orta məktəbin mə'zunudur. 637.500 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası - Xəlil Əsədov Azərbaycan Dəmiryolunda tə'limatçıdır. Anası –Şirin Əsədova işləmir.*



**ZAMİN QAYBALIYEV**

*Naxçıvan MR Babək ray. F.Kərimzadə adına Çalxanqala kənd orta məktəbinin mə'zunudur. 635.832 balla Naxçıvan Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.*



**İMRAN MƏMMƏDOV**

*Səbayel rayonu 160 saylı orta məktəbin mə'zunudur. 633.333 balla Azərbaycan Dövlət Neft Akademiyasının informatika və hesablama texnikası ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası - Davud Məmmədov «Azərneftyanacaq» istehsalat birliyində baş mühəndisdir. Anası – Svetlana Məmmədova işləmir.*



**İLKİN ABDULHƏMİDOV**

*Bakı Özəl türk liseyi Ağdaş filialının mə'zunudur. 631.668 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Abdulhamid Abdulhəmidov Şəki rayonu Zəyzid kənd orta məktəbində müəllimdir. Anası – Nailə Nəbiyeva tibb bacısıdır.*



**MƏZAHİR ALŞANOV**

*Şəki şəhəri I Biləcik kənd orta məktəbinin mə’zunudur.
631.666 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat ixtisasına qəbul olub.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası – Ələsgər Alşanov Şəki şəhəri Baqqal kənd natamam orta məktəbində müəllimdir.
Anası – Ayişə Alşanova işləmir.*



**RAUF İSMAYILOV**

*Binəqədi rayonu 267 saylı orta məktəbin mə’zunudur.
629.165 balla Azərbaycan Dövlət Neft Akademiyasının informatika və hesablama texnikası ixtisasına qəbul olub.
Ailələri 3 nəfərdən ibarətdir.
Atası – Yusif İsmayılov MTN-in zabitidir, leytenant-polkovnikdir.
Anası – Lyubov İsmayılova işləmir.*



**RAFİQ MANAFOV**

*Göyçay şəhər 3 saylı orta məktəbin mə’zunudur.
628.332 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının geologiyası və kəşfiyyatı ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası – Tofiq Manafov Azərbaycan Respublikası Prokurorluğunda prokuror köməkçisidir.
Anası –Nərgiz Manafova müəllimdir.*



**TEYMUR HƏSƏNOV**

*Suraxanı rayonu 154 saylı orta məktəbin mə’zunudur.
627.499 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası – İsmayıl Həsənov mühəndisdir.
Anası –Validə Həsənova mühəndisdir.*



**SAMİRƏ MİRZƏYEVA**

*Binəqədi rayonu 246 saylı orta məktəbin mə’zunudur.
625.000 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası – Namiq Mirzəyev «Effekt-B» firmasında işləyir.
Anası – Təhminə Mirzəyeva Binəqədi rayonu 246 saylı orta məktəbdə informatika müəllimidir.*



**KAMRAN ZAHİDOV**

*Nizami rayonu 10 saylı orta məktəbin mə’zunudur.
624.999 balla Azərbaycan Dövlət Neft Akademiyasının faydalı qazıntı yataqlarının geologiyası və kəşfiyyatı ixtisasına qəbul olub.
Ailələri 4 nəfərdən ibarətdir.
Atası - Zahidov Nəriman neft şirkətində mühəndisdir.
Anası – Zahidova Esmira 33 saylı musiqi məktəbində müəllimdir.*



**NƏRİMAN MEHDİYEV**

*Sumqayıt Özəl türk liseyinin mə’zunudur.
624.167 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası – Niyaz Mehdiyev SAM zavodunda sex rəisidir.
Anası – Təranə Mehdiyeva işləmir.*



**FAİQ HÜSEYNBƏYLİ**

*Cəlilabad rayonu Alar kənd 3 saylı orta məktəbin mə’zunudur.
622.500 balla Azərbaycan Texniki Universitetinin yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası - Bilal Hüseynov Cəlilabad rayonu Ocaqlı kənd 2 saylı orta məktəbinin müəllimidir.
Anası – Nisəxanım Hüseynova Cəlilabad rayonu Alar kənd 3 saylı orta məktəbində kitabxanaçı işləyir.*



**SEYMUR MƏMMƏDOV**

*Nərimanov rayonu Özəl türk liseyinin mə’zunudur.
621.669 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası - Vəli Məmmədov Güzgü zavodunda operatordur.
Anası – Gülqədəm Məmmədova işləmir.*



**ATİF QƏLƏMOV**

*Sumqayıt şəhəri texniki və təbiət elmləri üzrə liseyin mə’zunudur.
620.833 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
Atası - Sabir Qələmov işləmir.
Anası – Solmaz Hüseynova Sumqayıt şəhər 3 saylı orta məktəbdə riyaziyyat müəllimidir.*



### TAMARA PƏNAHOVA

*Nərimanov rayonu 291 saylı orta məktəbin (ekoloji lisey) mə'zunudur. 620.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası – Rəfael Pənahov mühəndisdir Anası – Olqa Pənahova mühəndisdir.*



### RUSTƏM RÜSTƏMOV

*Səbayel rayonu 160 saylı orta məktəbin mə'zunudur. 618.334 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası - Ramiz Rüstəmov distrubyutordur. Anası –İrina Rüstəmova işləmir.*



### XƏDİCƏ MUSAYEVA

*Balakən rayonu texniki-humanitar təmayüllü liseyin mə'zunudur. 618.333 balla Bakı Dövlət Universitetinin fizika ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Kamil Musayev Balakən rayon xəstəxanasında həkimdir. Anası – Füruzə Musayeva işləmir*



### CAVİD QAFARZADƏ

*Binəqədi rayonu 83 saylı orta məktəbin mə'zunudur. 613.331 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir, ana və 2 oğul. Anası – Sədaqət Ağayeva Azərbaycan EA-nın internet laboratoriyasında işləyir.*



### ELNUR İSAYEV

*Nizami rayonu 289 saylı orta məktəb-"Zəngi" liseyinin mə'zunudur. 612.500 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Abasət İsayev Azərbaycan EA-nın Fizika İnstitutunda aparıcı elmi işçi işləyir. Fizika-riyaziyyat elmləri doktorudur. Anası – Esmira İsayeva 254 saylı orta məktəbin kimya müəllimidir*



### ELVİN NƏSİBOV

*Nərimanov rayonu Bakı Özəl türk liseyinin mə'zunudur. 612.498 balla Azərbaycan Texniki Universitetinin mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – David Nəsibov Azərbaycan Texniki Universitetində riyaziyyat və informatika müəllimidir. Anası –Zareta Nəsibova 1 saylı fizika, riyaziyyat və informatika liseyində riyaziyyat müəlliməsidir.*



### MƏMMƏDƏLİ MƏMMƏDOV

*Nəsimi rayonu 42 saylı orta məktəbin mə'zunudur. 608.334 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası - Nazim Məmmədov Azərbaycan Dövlət Dillər Universitetində müəllimdir. Anası – Kəmalə Rəhmanova Azərbaycan Dövlət Tibb Universitetində poliklinik terapiya kafedrasında assistentdir.*



### XATİRƏ CƏFƏROVA

*Xətai rayonu 48 saylı orta məktəbin mə'zunudur. 608.333 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Tahir Cəfərov «Elçin» kiçik müəssisəsində işləyir. Anası – Kifayət Cəfərova Səbayel rayonu qaz idarəsində mühasibdir.*



### LEYLA MƏMMƏDOVA

*Yasamal rayonu 175 saylı orta məktəbin mə'zunudur. 607.500 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir Atası – Rafik Məmmədov Azərbaycan Texniki Universitetində müəllim işləyir. Anası – Səyyarə Məmmədova BDU-da mühasib işləyir.*



### VÜSAL ABUTALIBOV

*Naxçıvan şəhəri Naxçıvan peşə liseyinin mə'zunudur. 605.001 balla Naxçıvan Dövlət Universitetinin riyaziyyat ixtisasına qəbul olub.*



### RAMİL MƏMMƏDOV

*Nərimanov rayonu Özəl türk liseyinin mə'zunudur.*
*604.999 balla Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Rauf Məmmədov Bakı şərab zavodunda işləyir.*
*Anası – Nigar Məmmədova 278 saylı orta məktəbin kimya müəllimidir.*



### RÜFƏT MƏMMƏDOV

*Xətai rayonu 171 saylı orta məktəbin mə'zunudur.*
*603.331 balla Azərbaycan Dövlət Neft Akademiyasının informatika və hesablama texnikası ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Fuad Məmmədov Xətai və Nizami rayonlarının elektrik yarımstansiyasının rəisidir.*
*Anası – Nüşabə Mehdiyeva təqaüdçüdür.*



### ANAR DUŞDUROV

*Yasamal rayonu 20 saylı orta məktəb-liseyin mə'zunudur.*
*602.500 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Məsim Duşdurov Azərbaycan Dövlət Neft Akademiyasında ali riyaziyyat kafedrasının müəllimidir.*
*Anası – Marietta Əliyeva 176 saylı orta məktəbin riyaziyyat müəllimidir.*



### ZAMAN ƏMRAHOV

*Yasamal rayonu 53 saylı orta məktəbin mə'zunudur.*
*600.834 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Əlihüseyn Əmrahov işləmir.*
*Anası – Cəmilə Əmrahova dərzidir.*



### RƏHİM BALAKİŞİYEV

*Sumqayıt şəhəri "Təfəkkür" liseyinin mə'zunudur.*
*600.832 balla Azərbaycan Dövlət Neft Akademiyasının tətbiqi riyaziyyat ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Bəxtiyar Balakişiyev mühəndisdir.*
*Anası – Sevil Əsgərova mühəndisdir.*



### AĞAHÜSEYN ƏSƏDOV

*Bakı Özəl türk liseyi Quba filialıının mə'zunudur.*
*600.000 balla Azərbaycan Dövlət Neft Akademiyasının mühəndis iqtisadiyyatı və idarəetmə ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Əsəd Əsədov vəfat edib.*
*Anası – Qızılgül Əsədova Xaçmaz rayonu Bostançı kənd kitabxanasında xidmətçi işləyir.*

# II QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



***SALMAN HÜSEYNOV***
Bakı Özəl Türk liseyinin mə'zunudur.
687,499 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.
Ailələri 5 nəfərdən ibarətdir.
*Atası* – Nəriman Hüseynov Dəri Zöhrəvi Dispanserində həkimdir.
*Anası* – Hafizə Seyidova Dəri Zöhrəvi Dispanserində həkimdir.

**1.** Həyatda uğur qazanmaq üçün ali təhsil almaq vacibdir.
**2.** Azərbaycanı xaricdə təmsil etmək üçün bu ixtisası seçmişəm və ümumiyyətlə, bu barədə valideynlərim və qohumlarımla məsləhətləşmişəm.
**3.** Mən belə bir problemlə rastlaşmamışam!
**4.** Abituriyentə 15 ixtisas seçmək imkanı verilməsinə münasibətim müsbətdir. Çünki o, bu ixtisaslardan heç olmasa 5-6-na düşməyi istəyir və bunlardan birinə qəbul olmaq imkanına malik olur.
**5.** 15 ixtisas göstərmək imkanından tam istifadə etmişdim. Əgər beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olmasaydım, maliyyə və kredit ixtisasını seçərdim.
**6.** Xeyr, hələ ki peşman deyiləm, lakin mənim haqlı olub-olmamağımı gələcək göstərəcək.
**7.** Əvvəlcədən bilirdim ki, seçdiyim ixtisas ən yüksək keçid ballı ixtisasdır. Əgər bizə geniş ixtisas seçimi imkanı verilməsəydi, mən bəlkə də tərəddüd edərdim. Lakin 15-dək ixtisas seçmək imkanı mənə əlavə variant kimi digərlərinə də qəbul olmaq şansı verdiyi üçün mən birinci yerdə məhz beynəlxalq iqtisadi münasibətlər ixtisasını göstərmişdim.
**8.** Hazırlığım artdıqca yüksək bal toplayacağıma inanmağa başladım. Əvvəllər isə bu barədə heç fikirləşmirdim də.
**9.** Qəbul olduğum zaman sevinc hissi keçirtdim. Təəccüblənmədim, çünki balımı əvvəlcədən hesablamışdım.
**10.** Yaxşıdır, çünki test kitabçaları paylandıqdan sonra həm səhvlərini bilirsən, həm də arxayınlaşırsan.
**11.** Yaxşı nəticə əldə etməyin ən ümdə və başlıca şərti oxumaqdır. Mən müvəffəqiyyət qazanmağımda birinci növbədə müəllimlərimə borcluyam.
**12.** Qəbul imtahanlarına xüsusi olaraq 10-cu sinfin axırlarından müntəzəm hazırlaşmağa başladım. Lakin mən bütün fənləri əvvəlcədən də yaxşı oxuyurdum.
**13.** İmtahana hazırlaşarkən metodiki materiallardan və testlərdən istifadə etmişəm.
**14.** Mən imtahana hazırlaşarkən öz ixtisas qrupuma daxil olan 4 fənn üzrə qəbul proqramlarını, TQDK-nın nəşr etdiyi test toplularını almışdım və «Abituriyent» jurnalındakı testlərin hamısını həll etmişdim.
**15.** Testin metodikasını, texnologiyasını bilmək abituriyentə çox şey verir. Bunlara bələd olduqca yaxşı tanış olmadığın mövzulara aid suallara düzgün cavab vermək ehtimalı daha da çoxalır. Sınaq imtahanlarında iştirak etməklə isə daha çox təcrübələnirsən və nə qədər çox test edirsənsə, bir o qədər də vərdiş qazanırsan.
**16.** Məncə, bu, zəruridir. Hələ variantların sayı çoxaldılsa, daha yaxşı olardı.
**17.** Xeyr, yox idi. Mübahisəli heç bir suala rast gəlmədim.
**18.** İmtahan e'lan olunan kimi vaxt itirmədən suallara cavab yazmağa başladım, axı sınaq imtahanlarında dəfələrlə iştirak etmişdim. 2 saata bütün suallara cavab verdim, yarım saata cavabları yoxladım və son yarım saatda isə sualları «Cavab kartı»na köçürtdüm.
**19.** Test üsulu ilə imtahanda sualların sayı və çətinlik dərəcəsi hamı üçün eyni olur. Bu da səviyyəni müəyyənləşdirməkdə ən yaxşı yoldur.
**20.** Ümumiyyətlə, razı qaldım.
**21.** Məncə, belə fikirlər nəinki düzgün deyil, üstəlik də gənclərin biliyə, oxumağa olan həvəsini öldürə bilər.
**22.** Bəli, test imtahanı ali məktəbə qəbulda əhalinin müxtəlif təbəqələri üçün bərabər imkanlar tə'min edir.
**23.** Test imtahanı, həqiqətən, bilik yarışıdır.

**24.** Bəli, qane edirdi. Məncə, müəllimlərdən və məktəbdən çox şey asılıdır. Mənim yaxşı müəllimlərim olub və yüksək bal toplamağımda onların əməyi çox böyükdür. Əgər onlar olmasaydı, mən bu gün bu səviyyəyə çatmazdım.

**25.** Hələ təzə-təzə təhsil almağa başlamışam, odur ki, mənə çox şey o qədər də tam aydın deyil. Zənnimcə dövlət universitetlərində ingilis dilində tədris aparılan ixtisaslar da yaratmaq lazımdır.

**26.** Yox, mümkün deyil. Hesab edirəm ki, həyatda əsl hörmət, nüfuz qazanmaq üçün öz sənətinin bilicisi, ustası olmalısan.

**27.** Ali məktəbdən sonra vətəndə işləmək istərdim. Lakin imkan olsa, xaricdə işləyib, təcrübə toplayıb sonra vətənə qayıtmaq barədə də fikirləşirəm.

**28.** Proqram əsasında oxuyun, hazırlaşın, çoxlu test edin, sınaq imtahanlarına gedin. Bunları etdikdən sonra inanın ki, uğur qazanacaqsınız.

---



***SƏBUHİ SƏRDARLI***

Bakı Özəl Türk liseyinin mə'zunudur.
681.668 balla Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisasına qəbul olub.

Ailələri 4 nəfərdən ibarətdir.
*Atası* – Hidayət Sərdarov Azərgeofizika ETİ-də şöbə rəisidir.
*Anası* – İradə Sərdarova Azərgeofizika ETİ-də mühəndisdir.

**1.** Təhsilimi davam etdirmək, gələcəkdə cəmiyyətdə layiqli yer tutmaq üçün ali məktəbə qəbul olmuşam.

**2.** Problemlərlə dolu Azərbaycan iqtisadiyyatını dirçəltməyə, inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmağa kömək üçün bu ixtisası seçmişəm. Bu qərarı özüm qəbul etmişəm və valideynlərim də mənimlə razılaşıblar.

**3.** Xeyr, elə bir ixtisas yoxdur.

**4.** Bir qədər mənfidir. Çünki aşağı bal toplayan abituriyentlər ürəklərincə olmayan ixtisaslarda oxumağa məcbur olurlar.

**5.** Ərizəmdə 2 ixtisas göstərmişdim. Başqa heç bir ixtisasa daxil olmaq istəməzdim.

**6.** Onu gələcək göstərəcək. Hələlik peşman deyiləm.

**7.** Bəli, bunu bilirdim. Bu, heç də məni qorxutmurdu. Mənim məqsədim bu ixtisasa qəbul olmaq idi.

**8.** Qismən inanırdım, amma ürəyimdə şübhə də var idi.

**9.** Bir qədər mə'yusluq hissi keçirdim. Çünki nəticəm mən gözlədiyimdən 10 bal az oldu.

**10.** Çox müsbət. Mən bu haqda çoxdan fikirləşirdim. Elə alındı ki, bu, ilk dəfə biz imtahan verdikdə həyata keçdi.

**11.** Bunun sirri planlı və proqram üzrə oxumaq və praktikadan geniş istifadədir. Əlbəttə ki, test təcrübəsi. Müvəffəqiyyətə görə həm özümə, həm müəllimlərimə, həm də valideynlərimə eyni dərəcədə minnətdaram.

**12.** İmtahana il yarım əvvəldən hazırlaşmağa başlamışdım. Bu müddətin bir hissəsini fərdi şəkildə, bir hissəsini isə repetitorla hazırlaşmışam.

**13.** «Abituriyent» jurnalından, test toplularından, müxtəlif metodiki vəsaitlərdən, ümumiyyətlə, qəbul proqramına uyğun tapa bildiyim bütün materiallardan istifadə etməyə çalışmışam.

**14.** «Abituriyent» jurnalının nəşr etdiyi test toplularının, qəbul proqramlarının, tövsiyələrin, ayrı-ayrı mövzulara aid məqalələrin hazırlaşmağıma böyük köməyi olub. Bu materiallar həm hazırlaşmağımı istiqamətləndirib, həm də mənə əlavə bilik verib.

**15.** Test imtahanının texnologiyasına bələd olmağın üstünlükləri ondan ibarətdir ki, abituriyentin imtahanda texniki səhvləri azalır, psixoloji hazırlığı artır. Əlbəttə ki, bunun üçün sınaq imtahanlarının əvəzolunmaz rolu var.

**16.** Bir qədər mənfidir, fikrimcə, variantların sayı artırılmalıdır. Onların sayı sinifdəki uşaqların sayı qədər olsa, yaxşı olar. Bu da testdə olan bə'zi təsadüflərin, köçürmələrin çəkisini xeyli azaldar.

**17.** Mənə düşən variant kitabçasında belə suallarla rastlaşmadım.

**18.** Mən vaxt problemi ilə rastlaşmadım. İmtahan üçün ayrılan vaxtdan istifadə hər bir abituriyentin şəxsi işidir. Yə'ni kimə necə rahatdırsa, hansı fənni daha yaxşı bilirsə, ona əsasən də vaxtını bölməlidir. Mən belə bir məsləhəti verə bilərəm ki, sınaq imtahanlarını 2 saat yarım ərzində bitirməyə çalışsınlar və bu vaxta öyrəşsinlər. Onda imtahanda vaxt problemi olmayacaq. Bütövlükdə 4 fənn üzrə suallara cavab vermək üçün mənə 2 saat 20 dəqiqə lazım oldu.

**19.** Test üsulu ilə imtahan, demək olar ki, mənə biliyimi 100 faiz nümayiş etdirməyə imkan verdi. Ümumiyyətlə, test üsulundan xarici ölkələrdə neçə illərdir ki, istifadə olunur. Yə'ni bu artıq sınanmış bir üsuldur. Onun üstün cəhətləri çoxdur. Ən əsas üstün cəhəti isə onun abituriyentə öz biliyini nümayiş etdirməyə imkan verməsidir.

**20.** Başqa auditoriyaları deyə bilmərəm, amma bizim auditoriyadakı imtahanın gedişi məni qane etdi. Mən bu təkliflərimi də bildirmək istərdim:

a) Nəzarətçilərə nəzarət daha da gücləndirilsin, telekamera və s. vasitəsilə.

b) Partalarda şagirdlər tək-tək otursunlar.

s) Karandaşla qaralamağa icazə verilsin.

d) Korlanmış cavab kağızının əvəzinə dublikat verilsin.

**21.** Belə şaiyələrə münasibətim mənfidir. Bunlar boş söhbətlərdir.

**22.** Bəli, test imtahanları hamıya eyni hüquq verir, bərabər imkanlar yaradır.

**23.** Mənim bu məsələ barədə fikrim birmə'nalıdır: test əsl bilik yarışıdır.

**24.** Adi orta məktəblərdəki təhsil qaneedici deyil. Amma bə'zi lisey, kollec, təmayüllü məktəblərdəki təhsil digərlərindən fərqlənir. Həmin maarif ocaqlarındakı təhsilin səviyyəsi üstündür. Əlbəttə ki, bizim liseyin müəllim hey'ətinin üzərimizdə əvəzolunmaz zəhməti vardır. Mən nailiyyətimin böyük bir hissəsinə görə onlara borcluyam.

*600.000 balla Azərbaycan Dövlət İqtisad Universitetinin ümumi iqtisadiyyat ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Məmməd İsmayılov Azərneftyanacaq İstehsalat Birliyində nəzarətçi vəzifəsində işləyir.*
*Anası – Qönçə İsmayılova işləmir.*

# III QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



***RAUF NİFTİYEV***

Ağdaş rayonu Azərbaycan – Türk Özəl liseyinin mə'zunudur.
675,001 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.

Ailələri 5 nəfərdən ibarətdir.
*Atası* – İslam Niftiyev «Ədalət» qəzetində jurnalistdir.
*Anası* – Tamella Əliyeva İsmayıllı şəhəri 3 saylı orta məktəbdə müəllimdir.

**1.** Həyatda müvəffəqiyyət qazanmaq üçün ali təhsil əsas şərtlərdən biridir.
**2.** Ümumiyyətlə, diplomatiya ixtisası dünyada ən perspektivli ixtisaslardan biridir. Ona görə bu ixtisası seçmişəm. Ona qəbul olmaq çoxdankı arzum idi. Özüm seçmişəm. Atam hüquqşünas olmağımı istəyirdi.
**3.** Menecment ixtisası.
**4.** Müsbətdir. Çünki bu şəraitdə abituriyentlər yüksək keçid ballı ixtisaslar seçərkən daha sərbəst qərar verə bilirlər.
**5.** 15 ixtisas göstərmişdim. Buna baxmayaraq 1-ci yerdə göstərdiyim ixtisasa qəbul olacağıma əmin idim.
**6.** Peşman deyiləm, ancaq təhsilimi xaricdə davam etdirmək istəyindəyəm.
**7.** Bəli, bilirdim ki, beynəlxalq münasibətlər ixtisasına keçid balı çox yüksəkdir. TQDK-nın keçirdiyi sınaq imtahanlarında da yüksək bal toplayırdım. Proqrami tamamilə mənimsədiyimə inanırdım. Ona görə də heç bir şeydən çəkinmədim.
**8.** Buna heç şübhəm yox idi.
**9.** Əlbəttə ki, sevinc və fərəh.
**10.** Abituriyentləri 10 günlük stresdən qurtarır.
**11.** Səbəb planlı şəkildə çalışmaq və vaxtdan düzgün istifadə etməkdən ibarətdir. Müəllimlərimə, məktəbimə və valideynlərimə minnətdaram.
**12.** 11-ci sinifdən fərdi-müstəqil şəkildə hazırlaşmağa başlamışam.
**13.** "Abituriyent" jurnalından, test kitabçalarından və liseyimizin kitabxanasındakı kitablardan istifadə etmişəm.
**14.** «Abituriyent» jurnalı özümə inanmağıma kömək edirdi.
**15.** Onun sayəsində şagird imtahanda psixoloji cəhətdən rahat olur. Sınaq testləri isə abituriyentləri praktiki cəhətdən imtahana hazırlayır.
**16.** İmtahanın obyektiv keçirilməsinə şərait yaradır.
**17.** Xeyr, yox idi. Ancaq müəyyən suallarda xırdaçılığa yol verilmişdi.
**18.** İmtahan suallarını 60 dəqiqə ərzində cavablandırdım. Vaxt kifayət qədər idi. İmtahanlarda sualları həmişə sual kitabçasının 1-ci səhifəsindən başlayıb həll etmişəm.
**19.** Bəli.
**20.** İmtahanın obyektliyinə söz ola bilməz. Ancaq onun gedişinə mane olan hallar da var idi.
**21.** Sadəcə, boş söz-söhbətlərdir. Mənim imtahandan sonra hesabladığım balla jurnaldaki bal arasında heç bir fərq yox idi.
**22.** Biliyi olan hər kəs imtahanda öz istəyinə uyğun nəticəni əldə edə bilər.
**23.** Bəli.
**24.** Orta məktəblərdə təhsilin səviyyəsi çox aşağı olsa da, mənim bitirdiyim Ağdaş türk liseyində səviyyə çox yüksək idi.
**25.** Gözlədiyim kimi olmasa da, müəyyən standartlara cavab verir.
**26.** Sahələrə görə fərqlidir. Məsələn Bülənt Ecevit heç bir ali məktəbin mə'zunu deyil.
**27.** Mən təhsilimi xaricdə davam etdirmək istəyirəm. Lakin vətənimdə işləməyi özümə borc bilirəm.
**28.** Qəbul proqramı əsasında sistemli və planlı şəkildə çalışmaq və özünə inanmaq.
**29.** Yoxdur.



**ŞÖ'LƏ ƏLİYEVA**
Xətai rayonu 245 saylı orta məktəbin mə'zunudur.
660,834 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub.

Ailələri 5 nəfərdən ibarətdir.
*Atası* – Mürşüd Əliyev Sabunçu rayonu Birləşmiş Universal Səhmdar Bankında xəzinədardır.
*Anası* – Yaqut Əliyeva 35 saylı Ağdam köçkün məktəbində ibtidai sinif müəllimidir.

1. Müstəqil dövlətimizin quruculuğunda ali təhsilli mütəxəssis kimi iştirak etmək.
2. Hüquq elminə olan marağım. Hüquqşünasların cəmiyyətdə olan rolu. İnsan hüquqlarının qorunmasında xalqıma xidmət etmək arzum. İxtisas seçməkdə öz şəxsi rə'yim olub.
3. Yox! Çünki hüquqşünas olmaq mənim ən böyük arzumdur.
4. Müsbət. Bu, abituriyentin öz bilik və bacarığını nümayiş etdirməsinə və istədiyi ixtisaslardan birinə qəbul olmasına imkan yaradır. Hətta orta biliyi olan abituriyent də ali məktəbə daxil olmaq şansına malikdir.
5. Ərizəmdə 8 ixtisas göstərmişdim. Əgər 1-ci yazdığım ixtisasa daxil olmasaydım, xarici dillər, beynəlxalq münasibətlər və ya tarix ixtisasına qəbul olmaq istəyərdim.
6. Qətiyyən, peşman deyiləm. Əksinə, neçə illərdir arzusu ilə yaşadığım Bakı Dövlət Universitetinin hüquq fakültəsinin tələbəsi olduğuma görə xoşbəxtəm.
7. Seçdiyim ixtisasın yüksək bal tələb etdiyini bilirdim. Ancaq istəyim, iradəm hər şeyə üstün gəldi.
8. Yüksək bal toplayacağıma inanmasam da, buna cəhd edirdim.
9. Fərəh. Çünki qəbul olmağıma görə təkcə özüm sevinmədim, həm də müəllimlərimi, valideynlərimi, ümumiyyətlə, məni istəyənləri sevindirdim.
10. İmtahandan sonra test kitabçasının bizə paylanması çox yaxşı tədbirdir. Onu deyə bilərəm ki, mən elə imtahan günü müəllimlərimin yoxlamasından sonra maksimal balın 90%-nə qədərini topladığımı müəyyən etdim. Ancaq mən 656,6 bal hesablamışdım, nəticə isə 660,8 bal oldu.
11. Səbəb daim yorulmadan çalışmaqdır. Təvazökarlıqdan uzaq olsa da, deyim ki, bu uğura görə özümə və Rafil, Məryəm, Amaliya, Səlminaz və İsmayıl müəllimə minnətdaram.
12. Ümumiyyətlə, ixtisas qrupunun imtahan fənlərinə fərdi surətdə 9-cu sinifdən hazırlaşmağa başlamışam. Ancaq repetitorlarla X və XI siniflərdə məşğul olmuşam.
13. Tarix, coğrafiya, Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə dərsliklərdən, ingilis dilindən isə əlavə vəsaitlərdən də istifadə etmişəm.
14. «Abituriyent» jurnalı öz bilik səviyyəmi artırmaqda, yoxlamaqda mənə kömək edib. Bilmədiyim sualla rastlaşdıqda jurnalda verilən metodiki ədəbiyyatlara müraciət etmişəm.
15. Test imtahanının texnologiyasına bələdliyin əsas üstün cəhəti abituriyentə imtahanda özünü daha inamla aparmağa kömək etməsidir. Bu cəhətdən sınaq imtahanlarının rolunu mən çox yüksək qiymətləndirirəm. Ancaq sınaqlar çox keçirilsə, daha yaxşı olardı.
16. Çoxvariantlılıq uşaqların bir-birindən köçürmə hallarının qarşısını alır.
17. Xeyr. Mənə verilən test kitabçasında belə bir halla qarşılaşmadım. Bu da onu göstərir ki, hər bir oxuyan abituriyent üçün heç bir çətinlik ola bilməz.
18. Ümumiyyətlə, imtahana ayrılan 3 saat bilikli uşaq üçün bəs edir. Əlbəttə ki, vaxtı düzgün bölmək də əsas şərtlərdəndir. Mən imtahanın sonuna bir dəqiqə qalmış ayağa qalxdım. Vaxtı bölməyə qaldıqda isə əvvəlcə hər bir fəndən daha dəqiq bildiyim sualları cavablandırdım. Sonra isə daha çox fikirləşməli suallara keçdim.
19. Qəbul imtahanının test üsulu ilə keçirilməsi mənə öz biliyimi sərbəst surətdə nümayiş etdirməyə kömək etdi. Məncə, test imtahanının ən üstün cəhəti odur ki, bu şəraitdə özünü itirmək halları çox az olur. Həm də nəticələr olduğu kimi obyektiv surətdə qiymətləndirilir.
20. İmtahanının gedişində ciddi nöqsana rast gəlmədim. Ancaq küçədən gələn siqnal, musiqi səsləri, təbii ki, diqqətimizi yayındırırdı.
21. Mənə elə gəlir ki, bu, nadan adamların düşüncəsinə xas olan cəhətdir. Uzağa getmirəm, elə mənim hüquq fakültəsinə daxil olmağım bu fikrin əsassız olduğuna məni və qohum-əqrabamı inandırdı. Hamı gördü ki, mənim əzmkarlıqla çalışmağım öz bəhrəsini verdi.
22. Əlbəttə, test üsulunun elə üstün cəhətlərindən biri də budur. Əvvəllər hüquq fakültəsinə girmək üçün gərək «dayın» olaydı.

**23.** Abituriyentlərin hamısının qarşısına müxtəlif fənlərdən 120 sual qoyulur. Bu sualları maksimal sayda həll etməyə doğru yönələn fikri əməliyyatlar elə bilik yarışıdır.

**24.** Ümumiyyətlə, orta məktəblərimizdə tədrisin səviyyəsi məni qane etmir. Ancaq mənə dərs deyən müəllimlərin çoxu öz vəzifələrini layiqincə yerinə yetirə bilirdi. Mən ali məktəbə qəbul olmaqda onlara da minnətdaram. Məhz bunun nəticəsidir ki, bizim sinifdən, yə'ni Xətai rayonu 245 saylı məktəbin $11^A$ sinfindən 24 şagirddən 23-ü artıq tələbədir.

**25.** Bəli. Oxuduğum fakültədə təhsilin səviyyəsi elə mən gözlədiyim kimidir. Kitabların tapılmaması, bir qisminin isə çox baha olması əsas problemlərdəndir.

**26.** Müasir dünyada uğur qazanmaq üçün təhsili əsas şərt hesab edirəm.

**27.** Məqsədim vətənimdə xalqıma, dövlətimə xidmət etməkdir.

**28.** Onlar üçün yaradılan şəraitdən, imkanlardan düzgün istifadə etsinlər. Yüksək iradə sahibi olsunlar. Daim fikirləşsinlər ki, ali məktəbə hazırlaşan təkcə onlar deyil. Minlərlə abituriyent arasında rəqabət aparmaq zəhmət tələb edir.

**29.** Qəbul olmayanlara həvəsdən düşməməyi, öz istəklərinə nail olmaq üçün daha əzmlə mübarizə aparmağı tövsiyə edirəm. Gələcək abituriyentlərə isə sözümü artıq yuxarıda demişəm. Mən abituriyentlərə «respublika səviyyəsində sizə verilən qiymətdən razısınızmı?», sualını vermək istəyərdim. Nəhayət, onu da deməliyəm ki, TQDK-nın bizə ayırdığı hədiyyə şəxsən məni çox məmnun etdi. Çünki bu hədiyyə doğma Azərbaycanımız haqda çox qiymətli kitabdır.



***GÜNEL ƏLİYEVA***

Neftçala rayonu 1 saylı orta məktəbin mə'zunudur.

657,501 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub.

Ailələri 5 nəfrdən ibarətdir.

*Atası* – Ramiz Əliyev Neftçala rayon mərkəzi xəstəxanasında baş həkimin müavinidir.

*Anası* – Rəfiqə Manafova Neftçala rayon mərkəzi xəstəxanasında həkimdir.

**1.** Təhsilimi davam etdirmək, dərinləşdirmək və ali ixtisas dərəcəsinə yiyələnmək.

**2.** Azərbacanı xarici ölkələrdə layiqincə təmsil etmək ən yüksək amalımdır. İxtisas seçməkdə mənə anamın böyük tə'siri olub. Amma valideynlərimin rə'yi mənim arzu və fikirlərimlə üst-üstə düşüb.

**3.** Əgər 3-cü qrupa riyaziyyat fənni əlavə edilsəydi, biz beynəlxalq iqtisadi münasibətlər ixtisasını da seçə bilərdik.

**4.** Məncə, bir ixtisas bəs edər. Çünki ərizədə 15 ixtisasın göstərilməsi bə'zən arzuolunmaz nəticələrə gətirib çıxarır, yə'ni abituriyent istəmədiyi ixtisasa qəbul olur. Digər tərəfdən abituriyent əvvəlcədən bilsə ki, o yalnız bir ixtisas göstərə bilər, o zaman həmin yerin keçid balına uyğun olaraq yorulmadan hazırlaşacaq və daha ümid etməyəcək ki, bu ixtisas olmasa, o birinə qəbul olaram.

**5.** Bir ixtisas göstərmişdim. Mən daha heç bir ixtisasa qəbul olmaq istəməzdim.

**6.** Xeyr, peşman deyiləm. Bu ixtisası mən neçə illərdən bəri arzulayırdım.

**7.** Yüksək bal toplayacağıma inanırdım. Mən savadıma arxalanaraq bu ixtisası seçmişəm.

**8.** Mən nəinki 657, hətta daha yüksək bal yığmaq ümidi ilə imtahana getmişdim.

**9.** Əlbəttə, sevinc hissi keçirtdim.

**10.** Çox yaxşı. Bu, hər bir abituriyentə öz işinin nə yerdə olduğunu qabaqcadan bilməyə imkan verir. Mən imtahandan sonra balımı hesablayaraq onun 657 olduğunu artıq bilirdim. İmtahan nəticələrinin e'lanında da balım hesabladığım kimi oldu.

**11.** Birinci özümə minnətdaram. Əgər hər hansı bir abituriyentdə yüksək iradə olmasa, o, öz arzularına çata bilməz. Digər tərəfdən mən müəllimlərimə - xüsusilə Həqiqət, Müseyib, Arif, Nailə, Mənsurə müəllimlərimə minnətdaram. Çox sağ olsunlar ki, mənə belə yüksək səviyyədə bilik veriblər.

**12.** Repetitorlarla hazırlaşmışam.

**13.** Mən yalnız dərsliklərdən istifadə etmişəm. «Abituriyent» jurnalının məsləhətinə əsasən.

**14.** «Abituriyent» jurnalının hər bir tövsiyəsindən istifadə etmişəm. 1-ci nömrədə dərc edilən qəbul proqramıları, 2-ci sayda isə verilən metodiki materiallar mənə daha çox kömək edib.

**15.** Sınaq imtahanlarında yığdığım bala görə mən özümə daha çox arxayın oldum və bu bal mənə arzuladığım ixtisasa daxil olmaq iqtidarında olduğumu göstərdi.

**16.** Dörd variant imtahanda köçürmə hallarını azaldır.

**17.** Məktəb proqramına uyğun gəlməyən sual yox idi. Coğrafiyadan C variantında bir sual, məncə, müxtəlif cür izah oluna bilər.

**18.** Mən bütün fənlərin suallarını bir saat yarıma həll etdim. Yarım saata cavab kartına köçürtdüm. Qalan bir saatda boş qaldım. Sual kitabçasını özümlə götürmək üçün otaqda gözləməli oldum. Tövsiyə edərdim ki, abituriyentlər bunu, yə’ni imtahan vaxtını necə bölməyi qabaqcadan planlaşdırmasınlar. Bu, onları yalnız çaşdıra bilər.

**19.** Test hər bir abituriyentə biliyini yüksək dərəcədə göstərməyə imkan verir.

**20.** İmtahan tam sakit şəraitdə keçdi. Mən otağımızda olan müəllimlərə abituriyenlərin işləməsi üçün normal şərait yaratdıqlarına görə təşəkkür edirəm.

**21.** Bəli, qəbulla əlaqədar, xüsusilə nüfuzlu ixtisaslara qəbulla bağlı belə şaiyələr var. Mən belə şaiyələrə imtahandan əvvəl də inanmamışam, indi də inanmıram.

**22.** Test üsulu ilə imtahan bütün abituriyentlər üçün bərabər imkanlar tə’min edir.

**23.** Bu məsələyə fərqli münasibətim yoxdur: test əsl bilik yarışıdır.

**24.** Məktəbimizdə tədris məni qane edirdi. Əgər mən müəllimlərimdən yüksək bilik almasaydım, belə bal toplamağım qeyri-mümkün olardı.

**25.** Oxuduğum fakültədəki tədrisin səviyyəsi haqda indidən fikir söyləmək hələ tezdir. Hal-hazırda əsas qayğımız dərslərə hazır gəlməkdir.

**26.** Yox, mümkün deyil.

**27.** İxtisasıma uyğun olaraq xarici ölkədə işləmək istərdim.

**28.** Ali məktəbə hazırlaşan gənclərə tövsiyəm: iradəli olsunlar və məqsədləri üçün dönmədən mübarizə aparsınlar.

**29.** Sizin suallarınız əhatəlidir. Əlavə sual vermək istəməzdim.



***VAQİF KƏRİMLİ***

Nizami rayonu 129 saylı orta məktəbin mə’zunudur.
655,001 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub.

Ailələri 6 nəfərdən ibarətdir.
*Atası* – Asif Kərimov mərkəzi univermaqda fəhlə işləyir.
*Anası* – evdar qadındır.

**1.** Əsas səbəb təhsilimi davam etdirmək arzusudur.

**2.** Bu ixtisası öz istəyim və valideynlərimin razılığı əsasında seçmişəm.

**3.** Xeyr.

**4.** Münasibətim müsbətdir. Çünki bu halda risk azalır, şans çoxalır. Bu da abituriyentlərə müsbət psixoloji tə’sir edir.

**5.** Ərizəmdə 15 ixtisas göstərmişdim, əgər bu ixtisasa qəbul olmasaydım, “Hüquqşünaslıq”, yaxud “Sinxron tərcümə” (ingilis dili üzrə) ixtisasına daxil olmağı istəyərdim.

**6.** Qətiyyən, çünki arzuladığım ixtisasdır.

**7.** Bunu əvvəlcədən bilirdim, özümə arxayın idim.

**8.** Bəli. Çünki yüksək dərəcədə hazırlaşmışdım.

**9.** Sevinc.

**10.** Münasibətim yaxşıdır, çünki həyəcanları, nigarançılığı azaldır.

**11.** Yüksək nəticədə həm valideynlərimin, həm müəllimlərimin, həm də özümün payım var.

**12.** Qəbul imtahanlarına əvvəl fərdi, XI sinifdən isə bütün fənlərdən repetitorla hazırlaşmışam,.

**13.** «Abituriyent» jurnalı və müxtəlif test kitablarından da istifadə etmişəm.

**14.** «Abituriyent» jurnalının tövsiyələrinə əməl etməklə mən daha yaxşı işləyirdim.

**15.** Sınaq imtahanları abituriyentlərin imtahana psixoloji cəhətdən hazırlığına kömək etməklə yanaşı, biliyinin səviyyəsini də müəyyənləşdirməyə imkan verir.

**16.** Məncə, variantların sayı daha da artırılmalıdır.

**17.** Xeyr.
**18.** Mən vaxtımı düzgün böldüyümdən 2 saat ərzində bütün suallara cavab verib imtahanın qurtarmağını gözləməyə başladım. I mərhələdə asan, II mərhələdə isə nisbətən çətin suallara cavab verdim.
**19.** Məncə, test imtahanı daha obyektivdir.
**20.** İmtahanın gedişi yaxşı oldu. Heç bir narazılığım yoxdur.
**21.** Şəxsən öz timsalımda gördüm ki, bu şaiyələrin əsası yox dərəcəsindədir.
**22.** Bəli. Amma bə'zi fərqlər ola bilir. Bə'zən maliyyə məsələləri öz sözünü deyir, xüsusilə də ingilis dili üzrə bahalı kitablar məsələsi üzə çıxır.
**23.** Bəli. Çünki hər hansı bir fənnə aid bütün mövzular üzrə abituriyentin biliyi yoxlanılır.
**24.** Orta məktəb proqramı gözəldir, amma əsasən kağız üzərində.
**25.** Bə'zi cəhətləri çıxmaq şərtilə müsbət cavab verə bilərəm. Bir çox problemlər də istisna deyil.
**26.** Bəli. Çünki bacarıqsız işçi heç kəsə lazım deyil.
**27.** Bunu gələcək göstərəcək.
**28.** Məsləhətim: dərslərdə mövzuları daha yaxşı mənimsəməyə çalışsınlar.
**29.** Sualım: Azərbaycanın mənafeyini qorumağa həmişə hazırsınızmı? Mənim cavabım: Son damla qanıma qədər.

---



**RAUF ƏMİRASLANOV**

*Abşeron rayonu Xırdalan qəsəbəsi 1 saylı orta məktəbin mə'zunudur. 654.167 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Nazim Əmiraslanov işləmir. Anası – Surəyya Nadirova işləmir.*



**ZAUR NAĞIYEV**

*Nərimanov rayonu 200 saylı orta məktəbin mə'zunudur. 651.668 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Rəsul Nağıyev tikinti idarəsinin rəisi vəzifəsində işləyir. Anası – Müşkünaz Nağıyeva işləmir.*



**VASİF ƏMİRASLANOV**

*Abşeron rayonu Xırdalan qəsəbəsi 1 saylı orta məktəbin mə'zunudur. 650.834 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Nazim Əmiraslanov işləmir. Anası – Surəyya Nadirova işləmir.*



**ELMƏDDİN MEHDİYEV**

*Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin mə'zunudur. 650.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Ələddin Mehdiyev hərbiçidir, hal-hazırda ehtiyatdadır. Anası – Elmira Mehdiyeva Xətai rayon təhsil şö'bəsində baş mühasibin müavinidir.*



**ŞƏFA QARDAŞOVA**

*Binəqədi rayonu 144 saylı orta məktəbin mə'zunudur. 649.999 balla Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Vahid Qardaşov Bakı quraşdırma idarəsində işləyir. Anası – Sevinc Qardaşova işləmir.*



**SADIQ ƏLİYEV**

*Neftçala rayonu 4 saylı orta məktəbin mə'zunudur. 649.165 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Həqiqət Əliyev Neftçala şəhər xəstəxanasında həkimdir. Anası – Sevinc Əliyeva Neftçala şəhəri 4 saylı orta məktəbin müəllimidir.*



**ANAR QOCAYEV**

*Nərimanov rayonu Özəl türk liseyinin mə'zunudur. 643.335 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Əvəz Qocayev işləmir. Anası – Tamilə Məmmədova Azərbaycan Dillər Universitetində alman dili müəllimidir.*



**RƏFAİL SADIQOV**

*Sumqayıt şəhəri Özəl türk liseyinin mə'zunudur. 643.335 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Rafiq Sadıqov dispeçerdir. Anası – Ədilə Cəfərova işləmir.*



**SAMİR QASIMOV**

*Binəqədi rayonu 283 saylı orta məktəbin mə'zunudur. 640.832 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Saday QasımovBinəqədi rayon 283 saylı orta məktəbdə müəllim işləyir. Anası – Nazxanım Qasımova işləmir.*



**KAMRAN MUSAYEV**

*Balakən rayonu Nizami adına orta məktəbin mə'zunudur. 639.167 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Qizbullax Musayev Balakən rayonunda həkimdir. Anası – Ayişə Bayramova Balakən rayonunda tibb bacısıdır.*



**TURAL NOVRUZOV**

*Naxçıvan şəhəri türk liseyinin mə'zunudur. 639.165 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Əvəz Novruzov Şahbuz rayonu Kolanı kənd orta məktəbinin müəllimidir. Anası – Ofeliya Həsənova Şahbuz rayonu Kolanı kənd orta məktəbinin müəllimidir.*



**KÖNÜL İSMAYILOVA**

*Xətai rayonu 95 saylı orta məktəbin mə'zunudur. 638.334 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – İzzət İsmayılov işləmir. Anası – Sədaqət İsmayılova Xətai rayonu 95 saylı orta məktəbin müəllimidir.*



**RƏSUL ABBASOV**

*Sumqayıt Özəl türk liseyinin mə'zunudur. 637.500 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Elçin Abbasov Neft-Qaz-Avtomat İstehsalat Birliyində laboratoriya müdiri vəzifəsində işləyir. Anası – Lüdmila Səmədzadə Neft-Qaz-Avtomat İstehsalat Birliyində mühəndisdir.*



**POLAD MƏMMƏDOV**

*Bakı Özəl türk liseyi Quba filialıın mə'zunudur. 637.499 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Səfa Məmmədov Siyəzən rayonu Balaca Həmzə kənd orta məktəbində müəllimdir. Anası – Bağdasər Ağayeva Siyəzən rayonu Balaca Həmzə kənd orta məktəbində müəllimdir.*



**CEYHUN MƏMMƏDOV**

*Sabunçu rayonu 74 saylı orta məktəbin mə'zunudur. 636.667 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Fəxrəddin Məmmədov Xətai rayonu icra hakimiyyətində şö'bə müdiridir. Anası – Mahirə Məmmədova işləmir.*



**SEVİNC SƏFƏROVA**

*Nərimanov rayonu 82 saylı orta məktəbin mə'zunudur. 630.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Telman Səfərov işləmir. Anası – İradə Səfərova işləmir.*



**TEYMUR DADAŞOV**

*Bakı ş. Səbayel rayonu 160 saylı orta məktəbin mə'zunudur. 628.334 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Tofik Dadaşov həkimdir. Anası – Nərgiz Dadaşova 18 saylı poliklinikada həkimdir.*



**TOĞRUL ƏLİYEV**

*Yasamal rayonu 13 saylı orta məktəbin mə'zunudur. 627.501 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Nəcəfəli Əliyev «Qasid» firmasında köşk sahibidir. Anası – Rə'na Əliyeva 13 saylı uşaq poliklinikasında tibb bacısıdır.*



**İLQAR MƏMMƏDOV**

*Nizami rayonu 272 saylı orta məktəbin mə'zunudur. 625.834 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Güləhməd Məmmədov işləmir. Anası – Bəsti Məmmədova işləmir.*



**FƏRİD BAYRAMOV**

*Xətai rayonu 245 saylı orta məktəbin mə'zunudur. 623.335 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Abdulkərim Bayramov Bakı məişət kondisionerləri zavodunda mühəndisdir. Anası – Məryəm Əliyeva 116 saylı orta məktəbin müəllimidir.*



**ELMƏDDİN XƏLİLOV**

*Mingəçevir 10 saylı şəhər orta məktəbin mə'zunudur. 620.835 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Fəxrəddin Xəlilov Azərkabel zavodunda baş mühəndisdir. Anası – Rahilə Cəlilova işləmir.*



**ŞƏMŞİR QURBANOV**

*Bakı Özəl türk liseyi Əli Bayramlı filialının mə'zunudur. 619.999 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Əli Qurbanov Azneft zavodunda çilingərdir. Anası – Zemfira Qurbanova işləmir.*



**SİTARƏ HÜSEYNOVA**

*Xətai rayonu 245 saylı orta məktəbin mə'zunudur. 619.168 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Firudin Hüseynov Əlillərin sosial müdafiə fondunun iqtisad şö'bəsinin müdiridir. Anası – Xariqə Sadıqova radioquraşdırma zavodunda mühəndisdir.*



**ELAY MEHDİYEV**

*Nəsimi rayonu Bakı Anadolu türk liseyinin mə'zunudur. 618.334 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Qafar Mehdiyev jurnalistdir. Anası – Rahilə Bayramova 53 saylı orta məktəbin müəllimidir.*



**RUSLAN SALMANOV**

*Səbayel rayonu 160 saylı orta məktəbin mə'zunudur. 617.500 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Salman Salmanov Kənd Təsərrüfatı Nazirliyində aqrar-elmi mərkəzin şö'bə müdiridir. Anası – Müəssər Salmanova işləmir.*



**PƏNAH MƏMMƏDOV**

*Əli Bayramlı şəhəri M.Osmanov adına 20 saylı orta məktəbin mə'zunudur. 617.499 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Murad Məmmədov müəllimdir. Anası – Gülxar Mövsümova işləmir.*



**KAMRAN EMİNOV**

*Xətai rayonu 191 saylı orta məktəbin mə'zunudur. 615.833 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Məzahir Eminov «Azərbaycan» mehmanxanasında mühəndisdir. Anası – Xalidə Eminova işləmir.*



**RÜSTƏM HÜSEYNOV**

*Nəsimi rayonu 151 saylı orta məktəbin mə'zunudur. 614.167 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Niyazi Hüseynov «North-West» xarici şirkətində işləyir. Anası – Fəridə Səfərova Mərdəkan 2 saylı internat məktəbin müəllimidir.*



**NİYAZİ ORUCOV**

*Naxçıvan şəhəri türk liseyinin mə'zunudur. 612.500 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 8 nəfərdən ibarətdir. Atası – Qasım Orucov işləmir. Anası – Atlaz Orucova işləmir.*



**İSMAYIL HACIYEV**

*Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin mə'zunudur. 611.665 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Sadiq Hacıyev 272 saylı orta məktəbin müəllimidir. Anası – Qalibə Hacıyeva işləmir.*



**ZAUR ABBASOV**

*Nizami rayonu 272 saylı orta məktəbin mə'zunudur. 608.335 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Zahid Abbasov Keşlə maşınqayırma zavodunda sex rəisi vəzifəsində işləyir. Anası – Sədaqət Abbasova işləmir.*



**AYSEL ƏLİYEVA**

*Xızı rayonu Sitalçay Hərbi hissə kənd orta məktəbinin mə'zunudur. 608.333 balla Azərbaycan Dillər Universitetinin filologiya ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – E'tibar Əliyev 928 saylı hərbi hissədə qərargah rəisinin müavinidir. Anası – Aygün Əliyeva 928 saylı hərbi hissədə tibb bacısıdır.*



**AYTAC ƏSGƏROVA**

*Səbayel rayonu 7 saylı orta məktəbin mə'zunudur. 608.332 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Sadiq Əsgərov işləmir. Anası – Aybəniz Əsgərova 7 saylı orta məktəbin müəllimidir.*



**ÇİNQİZ ƏLİYEV**

*Nərimanov rayonu 47 saylı orta məktəbin mə'zunudur. 607.499 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Asif Əliyev DİN-nin işçisidir. Anası – Rəfiqə Əliyeva respublika xəstəxanasında həkimdir.*



**ELMAN HƏNİFƏYEV**

*Salyan rayonu 27 saylı dəmiryolu orta məktəbinin mə'zunudur. 603.333 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Tahir Hənifəyev 6 saylı rabitə və işarəetmə distansiyasında mexanikdir. Anası – Zeynəb Hənifəyeva 27 saylı orta məktəbin müəllimidir.*



**ANAR NƏCƏFOV**

*Nəsimi rayonu 211 saylı orta məktəbin mə'zunudur. 603.333 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Rəcəb Nəcəfov «M-M» nəqliyyat şirkətinin müdiridir. Anası – Ziyafət Nəcəfova işləmir.*



**ZÜLFİYYƏ ƏHMƏDOVA**

*Əli Bayramlı şəhəri M.Osmanov adına 20 saylı orta məktəbin mə'zunudur. 602.502 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası – Əzizağa Əhmədov Əli Bayramlı şəhəri 1 saylı orta məktəbin müəllimidir. Anası – Xanım Həsənova Əli Bayramlı şəhəri 20 saylı orta məktəbin müəllimidir.*



**KÖNÜL QULİYEVA**

*Xətai rayonu 191 saylı orta məktəbin mə'zunudur. 602.501 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Rasim Quliyev «Azərbaycan» mehmanxanasında barmendir. Anası – Səyyarə Quliyeva Xətai rayonu dezinfeksiya idarəsində dezinfektor işləyir.*



**TURAL SÜLEYMANOV**

*Nizami rayonu 62 saylı orta məktəbin mə'zunudur. 602.499 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Faiq Süleymanov işləmir. Anası – Telli Süleymanova 62 saylı orta məktəbin müəllimidir.*



**ŞƏHLA ƏHMƏDOVA**

*Səbayel rayonu 190 saylı orta məktəbin mə'zunudur. 601.668 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Eldar Əhmədov BDU-da kimya fakültəsinin dosentidir. Anası – Xuraman Musayeva 176 saylı orta məktəbin müəllimidir.*



**XANIM HACIYEVA**

*Abşeron rayonu Xırdalan qəsəbə 1 saylı orta məktəbinin mə'zunudur. 601.667 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Şərif Hacıyev işləmir. Anası – Sevil Qarayeva uşaq poliklinikasında sahə həkimidir.*



**ÜLFƏT MAÇANOV**

*Gəncə şəhəri 25 saylı orta məktəbin mə'zunudur. 601.666 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Rafael Maçanov Gəncə Texnologiya Universitetinin dosentidir. Anası – Bəsti Maçanova Gəncə şəhəri 39 saylı orta məktəbin müəllimidir.*



**DİNAR QULİYEVA**

*Gəncə şəhəri M.Ə.Sabir adına 5 saylı orta məktəbin mə'zunudur. 601.666 balla Azərbaycan Dillər Universitetinin dilşünaslıq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Faiq Quliyev işləmir. Anası – Səadət Mustafayeva işləmir.*



**SEYMUR ƏFƏNDİYEV**

*Bakı Özəl türk liseyi Ağdaş filialının mə'zunudur. 600.834 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Aydın Əfəndiyev işləmir. Anası – Yeganə Əfəndiyeva işləmir.*



**NƏZRİN ABBASOVA**

*Nizami rayonu 272 saylı orta məktəbin mə'zunudur. 600.834 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Həşimala Abbasov Azəryol Layihə İnstitutunda mühəndisdir. Anası – Rəhilə Abbasova 272 saylı orta məktəbin müəllimidir.*



**ZİYA MANSUROV**

*Sumqayıt şəhəri 29 saylı orta məktəbin mə'zunudur. 600.833 balla Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – İlham Mansurov işləmir. Anası – Rəhilə Həsənova işləmir.*



**KÖNÜL QASIMOVA**

*Sumqayıt şəhəri 37 saylı orta məktəbin mə'zunudur. 600.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq hüquq ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Vaqif Qasımov metallurgiya müəssisəsində rəisdir. Anası – Kifayət Qasımova Sumqayıt şəhəri 37 saylı orta məktəbin müəllimidir.*



**MEHRİBAN MƏNSİMOVA**

*Sumqayıt şəhəri 28 saylı orta məktəbin mə'zunudur. 600.000 balla Bakı Dövlət Universitetinin beynəlxalq münasibətlər ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – YaşarMənsimov Sumqayıt şəhər etilen-poletilen zavodunda sex rəisinin müavini işləyir. Anası – Səidə Nuriyeva Sumqayıt şəhər mərkəzi rabitə şö'bəsində mühasib işləyir.*

# IV QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



***SAMİRƏ HÜSEYNOVA***
Sabunçu rayonu 72 saylı məktəb-liseyin mə'zunudur.
685,833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.

Ailələri 7 nəfərdən ibarətdir.
*Atası* – Teymur Hüseynov Bakı şəhər 11 saylı poliklinikada həkim işləyir.
*Anası* – Maya Hüseynova riyaziyyat müəllimidir.

**1.** Ailə üzvlərimizin hamısı ali savadlıdır. Cəmiyyətdə də ali təhsil hörmətli, şərəfli sayılır. Ona görə belə mühit, belə qənaət məni də ali təhsil almağa sövq edib.

**2.** Həkimlik gözəl sənətdir. İnsan sağlamlığının keşiyində durmaq arzusu məndə uşaqlıqdan yaranıb. Həkimlik bizim bir növ ailəvi sənətimizdir. Atam da, bacım da həkimdir. Valideynlərim də mənə bu peşəni seçməyi məsləhət görüblər.

**3.** Arzuladığım, lakin IV qrupun ixtisasları siyahısında olmayan elə bir ixtisas yoxdur.

**4.** Test sistemində abituriyentə 15 ixtisas seçmək imkanı verilməsinə münasibətim müsbətdir. Çünki burada normal səviyyəli hər bir abituriyentin öz biliyinə uyğun ixtisasa daxil olmasına imkan var.

**5.** Ərizəmdə 15 ixtisas göstərmişdim. Ancaq daxil olduğum ixtisasdan qeyri ixtisas istəməzdim.

**6.** Bu ixtisasa qəbul olmağımdan olduqca razıyam. Ancaq pediatriya və əczaçılıq da yaxşı ixtisaslardır.

**7.** «Müalicə işi»nə keçid balı həmişə yüksək olub. Mən bunu bilirdim, ancaq qarşıma qəti məqsəd qoymuşdum və müsabiqədən uğurla çıxmaq üçün böyük sə'y göstərdim.

**8.** Yüksək bal toplamaq ümidini heç vaxt itirmirdim. Lakin 685 bal toplamağı mən özüm üçün əlçatmaz hesab edirdim.

**9.** Doğrusu, qəbul xəbərini eşidəndə elə bir dərin hisslər keçirmədim. Bu mənə nə isə adi bir hal kimi gəldi.

**10.** İmtahandan sonra test kitabçalarının abituriyentlərə paylanması çox yaxşı işdir. Çünki bu, hər kəsə elə imtahan verən günü öz nəticələrini bilməyə, şansını qiymətləndirməyə kömək edir. Yoxsa qəbulun cavablarını 10 gün gözləmək çox dözülməzdir. Sualların düzgün cavablarının çap olunması da yaxşıdır, bu, öz nəticələrini daha da dəqiqləşdirməyə imkan verir.

**11.** Qəbul imtahanında yüksək nəticə əldə etmək o qədər də çətin deyilmiş. Sadəcə olaraq çox çalışmaq lazımdır. Bu da insanın özündən asılıdır. Bu nəticələrim üçün valideynlərimə də, müəllimlərimə də çox minnətdaram. Hamının valideyni əziyyət çəkir, ancaq ə'la müəllimləri olanlar yüksək nəticə göstərir. Mən 72 saylı məktəbin müəllim kollektivinə, xüsusən də Rəhimə, Telman, Nurəhməd, Eyvaz və Şəfiqə müəllimə təşəkkür etmək istərdim.

**12.** Qəbul imtahanlarına ciddi olaraq 10 ay hazırlaşmışam. Bu prosesdə mənə repetitorların böyük köməyi oldu.

**13.** İmtahana hazırlıq zamanı əlavə material kimi yalnız «Abituriyent» jurnalından istifadə etmişəm. Jurnalda verilən qəbul proqramı əsasında oxuyub çalışmışam.

**14.** Jurnalın qəbula hazırlaşanlar üçün əhəmiyyəti çox böyükdür. Ondan istifadə etməklə ötəri nəzər yetirdiyimiz mövzulara, hissələrə daha ciddi yanaşır, maraqlı test nümunələri ilə tanış olurduq.

**15.** Test üsulu ilə imtahan texnologiyasına bələd olmaq abituriyent üçün çox vacibdir. Uğurla imtahan vermək üçün bunun bilik qədər əhəmiyyəti var. Çünki elementar ehtiyatsızlıq, diqqətsizlik ucundan bütün əməyin zay ola bilər. Buna görə də sınaq imtahanlarına getməyin böyük faydası var. Sınaq imtahanlarında abituriyent imtahan şəraitinə alışır. Kodlaşdırmanı, cavab kartını doldurmağı öyrənir və 4 fənn arasında dəqiq vaxt bölgüsü aparmağı öyrənir.

**16.** Test imtahanlarında 4 variantın olması çox vacibdir. Çünki bu şəraitdə ətrafdakıların maneçiliyi olmadan sərbəst işləmək imkanı əldə edirsən.

**17.** Qəbul imtahanlarına daxil edilmiş suallar asan və aydın idi. Onlar tam məktəb proqramı çərçivəsində idi. Birinci dəfə sual kitabçasını açanda testlər mənə həddən artıq asan gəldi.

**18.** Mən imtahan üçün ayrılmış vaxtdan tam səmərəli istifadə etdim və vaxt mənə kifayət etdi. Hər fənnə 45 dəqiqədən artıq vaxt sərf etmək olmaz. İmtahanın sonundakı yorğunluğu da nəzərə almaq lazımdır. Buna görə də ən əsas fəndən başlayıb sür'ətlə işləmək lazımdır. Eyni zamanda tələsmədən, suallara diqqətlə yanaşaraq cavab verdikdə vaxt kifayət edir.

**19.** Test üsulu abituriyentə öz bilik və bacarığını sərbəst, müəllimlərdən çəkinmədən nümayiş etdirmək imkanı verir. Test üsulunda abituriyent həyəcanlanmadan suallar üzərində işləyir.

**20.** Qəbul imtahanlarının gedişi çox gözəl təşkil olunmuşdu. Yaradılan şəraitin mənim bu qədər bal toplamağımda böyük əhəmiyyəti oldu. Nəzarətçilər də heç kimin bir-birinə mane olmasına imkan vermirdi.

**21.** Doğrusu, qəbul imtahanları ilə bağlı mən də çoxlu şaiyələr eşitmişəm. Lakin özüm bu imtahandan keçdikdən sonra bu şaiyələrin tamam əsassız olduğuna inandım.

**22.** Test imtahanı abituriyentin mənsub olduğu təbəqəni deyil, onun biliyini yoxlayır, qiymətləndirir.

**23.** Test üsulu ilə qəbul imtahanı əsl bilik yarışıdır. Bu yarışda yalnız biliklilər qalib gəlir. Bu da həyatımızın yeni bir qanunudur. Hər fənnə aid olan 30 sual siniflər üzrə keçilən bütün materialları əhatə etdiyindən hər kəsin bilik və bacarığı bu suallara cavab verməklə üzə çıxır.

**24.** Biliklərə dərindən yiyələnməkdə əsas rolu məktəb və müəllimlər oynayır. Məktəbdə ə'la oxumaqla çətinliklərin öhdəsindən asanlıqla gəlmək olar. Buna görə də mən məktəbimizə və müəllimlərimə minnətdaram. Ancaq bütövlükdə orta məktəbdəki tədris o qədər də qaneedici deyil, ona görə də əlavə məşğul olmağa məcbur olursan.

**25.** Tibb universitetində dərslər yüksək səviyyədə keçilir. Düzü mən belə təsəvvür etmirdim. Tələbəlik həyatı maraqlıdır, ancaq bə'zi çətinliklərə də rast gəlirsən. Əsas problem dərsliklərin tapılmamasıdır.

**26.** Müasir dövrdə yalnız hazırlıqlı mütəxəssislərə ehtiyac var. Savadlı kadrlar uğur qazanır, qalanları isə mübarizədə məğlub olur.

**27.** Ali məktəbi bitirdikdən sonra mən xarici ölkədə biliyimi daha da artırmaq istərdim. Çünki xaricdə imkanlar daha genişdir. Lakin sonra işlərimi vətəndə davam etdirmək istərdim.

**28.** Gələcək abituriyentlər ali məktəbə daxil olmaq üçün böyük sə'y göstərməli, çox oxumalı və müəllimlərin tapşırıqlarına əməl etməlidirlər.

**29.** Mən başqa yüksək bal yığan tələbələrə müraciət etmək istərdim: Bu uğur sizin həyatınızda nə kimi rol oynadı: yə'ni bu nailiyyət sizin həyatınızın ən xoşbəxt zirvəsidir, yoxsa siz bunu uğurların ilk cücərtisi hesab edirsiniz?



***İLHAMƏ MAHMUDOVA***

Xətai rayonu, 287 saylı "Zəkalar" liseyinin mə'zunudur.
672,500 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.

Ailələri 2 nəfərdən ibarətdir.
*Atası* – 1986-cı ildə vəfat edib.
*Anası* – Bakı metropoliteninin "Gənclik" stansiyasında nəzarətçi işləyir.

**1.** Ali məktəbə qəbul olmaq istəyimin əsas səbəbi sözün əsl mə'nasında öz potensial imkanımdan istifadə edərək xalqıma kömək etməkdir.

**2.** Bu ixtisasda seçim genişdir və daha məs'uliyyətli işdir. İxtisas seçərkən anamla məsləhətləşmişəm. O, məni hüquqşünas kimi görmək istəyirdi. Amma sonradan fikrimizi dəyişməli olduq.

**3.** Xeyr.

**4.** Müsbətdir. Çünki abituriyentə hər hansı bir ixtisasa qəbul olmaq imkanı verir.

**5.** Ərizəmdə 8 ixtisas göstərmişdim. Əgər indiki ixtisasa daxil olmasaydım, yəqin ki, başqa heç birini ürəkdən istəməzdim.

**6.** Yox, peşman deyiləm. Bu ixtisasa yiyələnmək mənim ən böyük arzumdur.

**7.** Keçən il müalicə işi ixtisasına keçid balı builkinə nisbətən çox aşağı idi. Amma müəllimlərimiz bizdə balların yüksək olacağı haqda təsəvvür yaratmışdılar. Bir də ki mən inad etməyi xoşlayıram.

**8.** Yüksək bal toplamağı qarşıma məqsəd qoymamışdım. Ona görə də imtahanda suallara kifayət qədər cavab yazdıqdan sonra bir qədər arxayınlaşdım.

**9.** Heç bir xüsusi hiss keçirmədim. Sanki belə də olmalıydı.

**10.** Bu, çox yaxşı addım idi. Abituriyentlər cavablar çıxana qədər sakitləşirlər.

**11.** Bunun heç bir sirri yoxdur. Sadəcə həyəcanlanmamaq lazımdır. Belə nəticə əldə etdiyimə görə ən əvvəl mənə indiyə qədər mə'nəvi yoldaşlıq edən anama minnətdarlığımı bildirirəm. Özünə deməsəm də, ona nə qədər borclu olduğumu bilməsini istəyərdim. Bundan başqa, müəllimlərimə - Aygün müəlliməyə, Atlas müəlliməyə, xüsusilə mənə həm ata, həm dayı, həm də müəllim olan Şamxal müəllimə həyatım boyu minnətdar olacam.

**12.** Qəbul imtahanlarına 1999-cu ilin oktyabrından repetitorla hazırlaşmışam.

**13.** Dərsliklərdən başqa çoxlu test nümunələrindən istifadə etmişəm.

**14.** «Abituriyent» jurnalının rolunu burada xüsusi qeyd etməliyəm. Çünki bu jurnal bütövlükdə imtahanın texnologiyası haqda, testlərin quruluşu haqda bizi kifayət qədər mə'lumatlandırıb.

**15.** Sınaq imtahanları abituriyentin yalnız biliyini deyil, həmçinin psixoloji vəziyyətini də sınayır. Sınaq imtahanlarından mən çox şey öyrəndim və bunu asanlıqla qəbul imtahanlarında tətbiq etdim.

**16.** Əlbəttə, bunun əhəmiyyəti böyükdür. Köçürmə imkanı azalır.

**17.** Rast gəlmədim.

**18.** Mən 2 saatdan sonra suallara cavab verib qurtarmışdım. Gələcəyin abituriyentlərinə məsləhətim budur: çalışın həyəcanlanmayasınız, əgər bunu bacarsanız, vaxt problemi sizin üçün öz-özünə həll olunacaq.

**19.** 80% imkan verdi. Test üsulu ilə imtahan abituriyenti materialları daha dəqiq nəzərdən keçirməyə məcbur edir. Abituriyent daha da xırdalıqlara fikir verməli olur. Məntiqi sualların üzərində daha çox fikirləşməli olur.

**20.** Mən imtahan zalında səs-küyün olmasından qorxurdum. Amma xoşbəxtlikdən mən elə bir otağa düşdüm ki, orada sakitlik hökm sürürdü. Bu da mənə fikrimi toplamağa imkan verdi.

**21.** Bir il bundan əvvəl mən bu söz-söhbətə inanırdım. İndi isə bunların əsassız olduğunu gördüm. Əlbəttə, belə hallar da mümkündür. Amma bilənə zaval yoxdur.

**22.** Bəli, bunu test üsulu ilə imtahanın başlıca müsbət cəhəti saymaq olar.

**23.** Bu, yalnız bilik yarışı deyil, həmçinin abituriyentlərin psixoloji hazırlıq səviyyələrinin yarışıdır, texniki qaydaları nə dərəcədə qavrama bacarıqlarının yarışıdır.

**24.** 287 saylı "Zəkalar" liseyi tədrisin səviyyəsinə görə başqa məktəblərdən fərqlənir. Mənim bu nəticəni əldə etməyimdə bu məktəbin çox böyük rolu olub. Müəllimlər bizim aramızda rəqabət yaradır, biz isə, təbii ki, bu mübarizədə qalib gəlməyə çalışırdıq.

**25.** ATU-da təhsil səviyyəsi mən gözlədiyimdən daha yüksəkdir. Burada yeganə problem – kitab problemidir. Amma onu da deyim ki, bizim universitet başqalarından kitabxanasının zənginliyinə görə fərqlənir. Yə'ni burada lazımi kitabların çoxu var. Lakin elə kitablar da var ki, onlar çatışmır, satışda isə çox bahadır.

**26.** Ümumiyyətlə, yaxşı təhsil almadan, xüsusilə tibb sahəsində yaxşı mütəxəssis olmadan nüfuz qazanmaq qeyri-mümkündür.

**27.** Əlbəttə ki, Vətəndə. Vətənimin borcunu özünə qaytarmalıyam.

**28.** Gecə-gündüz oxuyun, testlər üzərində çalışın. Mütləq uğur qazanacaqsınız!

**29.** Sualım: Gələcək mütəxəssis kimi Azərbaycanda nəyi dəyişdirmək istərdiniz, bunun üçün nə edərdiniz? Amma bu suala səmimi cavab verməyi xahiş edirəm.



**_KÖNÜL KƏRİMOVA_**

Xətai rayonu 287 saylı «Zəkalar» liseyinin mə'zunudur.

666,667 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.

Ailələri 4 nəfərdən ibarətdir.

*Atası* – Nazim Kərimov Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin professorudur.

*Anası* – Azilə Kərimova «Zəkalar» liseyində informatika müəllimidir.

**1.** Ali məktəbə daxil olmaq ən böyük arzum olub.

**2.** Xalqımıza xidmət etmək məqsədilə bu ixtisası seçmişəm. Televiziyada həkimlər haqqında verilən filmlər məni daha da həvəsləndirirdi. Valideynlərim də mənim bu arzumu dəstəkləyirdilər.

**3.** Yox, elə bir ixtisas olmayıb.

**4.** 15 ixtisas seçmək iabituriyentlərin qəbul olmaq imkanını artırır. Buna görə də buna müsbət münasibət bəsləyirəm.

**5.** Ərizəmdə 9 ixtisas göstərmişdim. Amma buna baxmayaraq, ancaq və ancaq birinci göstərdiyim ixtisasa qəbul olmaq istəyirdim.

**6.** İndi oxuduğum ixtisasa qəbul olmağımdan qətiyyən peşman deyiləm.

**7.** Qəbul üçün keçid balı yüksək olduğunu bilirdim. Eyni zamanda onu da bilirdim ki, keçid balı ildən-ilə artır. Buna görə də daha inadla hazırlaşırdım.

**8.** Yüksək bal toplayacağıma həm inanırdım, həm də yox.

**9.** Nəticələr çıxanda artıq mən balımı bilirdim. Amma yenə də çox sevinirdim.

**10.** İmtahandan sonra test kitabçalarının bizə paylanacağını biləndə çox sevindim. Çünki bu, bizi lazımsız narahatçılıqdan xilas etdi.

**11.** Qəbul imtahanlarında yüksək nəticə əldə etməyimin heç bir xüsusi sirri yoxdur. Sadəcə hamı kimi mən də ciddi hazırlaşırdım. Buna görə valideynlərimə, özümə və müəllimlərimə minnətdaram.

**12.** Qəbul imtahanlarına oktyabr ayından hazırlaşmağa başlamışam. Repetitorla hazırlaşırdım.

**13.** İmtahana hazırlıq zamanı dərsliklərdən əlavə «Abituriyent» jurnalından istifadə edirdim. Bu jurnal dərsi daha yaxşı mənimsəməkdə mənə çox kömək etdi.

**14.** Qəbula hazırlaşanlar üçün «Abituriyent» jurnalının çox böyük əhəmiyyəti var. Jurnal testin texnologiyasına bələd olmağa kömək edir.

**15.** Testin texnologiyasına bələd olan abituriyent artıq vaxt itkisinə yol vermir. Bunun da ki qəbul imtahanında çox böyük əhəmiyyəti var. Sınaq imtahanları bu yolda abituriyentin ən böyük köməkçisidir.

**16.** Düzdür, dördvariantlılıq yaxşıdır. Lakin bu da köçürmə hallarını tamamilə aradan qaldırmır. Müxtəlif variantlarda sualların əksəriyyəti eyni olur, ancaq yerləri dəyişdirilir.

**17.** Bütün suallar dərsliklərdən seçilmişdi. Onların içərisində mübahisəliləri yox idi.

**18.** Vaxtdan səmərəli istifadə etməyə çalışırdım. İlk bir saat ərzində suallara cavab verdim. Sonra cavablarımı diqqətlə cavab kartına köçürdüm.

**19.** Şifahi imtahan zamanı müəllim abituriyenti çox asanlıqla çaşdıra bilər, o, öz biliyini tamamilə nümayiş etdirməyə bilər. Test imtahanında isə abituriyent sual kitabçası ilə üzbəüz olur, düşünmək və biliyini nümayiş etdirmək üçün tam sərbəst olur.

**20.** Ümumiyyətlə, yaxşı keçdi. İlk iki saat ərzində tamam sakitlik idi. Üçüncü saat bir az səs-küy oldu.

**21.** Məncə, belə şaiyələr, söz-söhbətlər səhvdir, əsassızdır. Orta biliyi olan hər bir şəxs test imtahanı ilə ali məktəbə qəbul ola bilər.

**22.** Əlbəttə ki, tə'min edir. Hamıya eyni suallar verilirsə, sözsüz burada ayrı-seçkilikdən söhbət gedə bilməz.

**23.** Ümumiyyətlə, hər bir imtahan bilik yarışıdır.

**24.** Oxuduğum orta məktəbdəki tədris məni qane edirdi. Bütün müəllimlərimə səmimi qəlbdən çox sağ ol deyirəm. Onlara minnətdaram.

**25.** Təhsil almağa başladığım ali məktəbdə tədrisin səviyyəsi məni qane edir və mən gözlədiyimdən də yüksəkdir. O ki qaldı sualın ikinci hissəsinə, tələbəlik həyatı qayğısız olmur. İlk günlər kitab problemi ilə rastlaşdım, sonra isə universitetin kitabxanasının köməyi ilə bu problem həll olundu.

**26.** Yaxşı təhsil almadan, ə'la mütəxəssis olmadan müasir dünyada uğur qazanmaq heç cür mümkün deyil.

**27.** Ali məktəbi bitirməyimə hələ 7 il var. Ona görə bu haqda hələ fikirləşməmişəm.

**28.** Ali məktəbə qəbul olmaq istəyən gənclərə demək istərdim ki, hər şey insanın özündən asılıdır. Ruhdan düşəndə belə oxumağı dayandırmaq lazım deyil.

**29.** Mənə elə gəlir ki, siz mümkün olan və mümkün olmayan sualların hamısını vermisiniz. Heç bir sualım yoxdur.



***RİZVAN İMAMƏLİYEV***

Nərimanov rayonu Özəl Türk liseyinin mə'zunudur.

666,667 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.

Ailələri 6 nəfərdən ibarətdir.

*Atası* – Xanlar İmaməliyev Səbail rayonu 236 saylı orta məktəbin direktorudur.

*Anası* – Sima Piriyeva Səbail rayonu 236 saylı məktəbin müəllimidir.

**1.** Gələcəkdə yaxşı həkim olmaq.

**2.** Həkimlik sənətinə olan marağıma görə bu ixtisası seçmişəm. Valideynlərimin və müəllimlərimin ixtisas seçimində mənə tə'siri olub.

**3.** Xeyr.

**4.** Müsbətdir. Seçim imkanı genişdir.

**5.** 14 ixtisas. Pediatriya və stomatologiya ixtisaslarına da marağım olub.

**6.** Xeyr.

**7.** Mən öz biliyimə arxayın idim.

**8.** Bəli, inanırdım.

**9.** Sevincimin həddi – hüdudu yox idi.

**10.** Münasibətim müsbətdir, çünki cavablarımı yoxlatdıra bilmişdim.

**11.** Yüksək bal yığmağın sirri çox oxumaqdır ki, buna da əslində sirr demək olmaz, çünki onu hamı bilir. Yüksək nəticə əldə etdiyimə görə valideynlərimə də, müəllimlərimə də, özümə də minnətdaram.

**12.** X sinifdən fərdi-müstəqil formada hazırlaşmağa başlamışam.

**13.** Əlavə olaraq müxtəlif metodiki çap materialları və dərs vəsaitlərindən istifadə etmişəm.

**14.** «Abituriyent» jurnalı dərslik proqramına uyğun olduğu üçün ən gözəl vəsaitdir.

**15.** Testin texnologiyasına bələdlik imtahana hazırlığa çox kömək edir.

**16.** Müsbətdir. Çoxvariantlılıq köçürmə hallarını azaldır.

**17.** Xeyr, rastlaşmadım.

**18.** İmtahandan əvvəl vaxtımı fikrən bölüşdürmüşdüm. Belə ki, ilk 2 saatı sual kitabçası ilə işlədim, sonra cavabları diqqətlə cavab kartına qeyd elədim. Axırda isə əvvəl yaza bilmədiyim sualların üzərinə bir daha qayıtdım.

**19.** Test üsuluna münasibətim müsbətdir, suallara cavab vermək üçün bütün mövzuları öyrənməyə məcbursan.

**20.** İmtahanın gedişindən razı qaldım, mənfi hallarla rastlaşmadım. İşləmək üçün normal şərait var idi.

**21.** Münasibətim mənfidir. Biliyi olan hər bir kəs kimliyindən asılı olmayaraq istədiyi ixtisasa qəbul ola bilər.

**22.** Bəli, test imtahanı hamı üçün bərabər imkanları tə'min edir.

**23.** Həqiqətən də test imtahanı bilik yarışıdır.

**24.** Mən təhsil aldığım məktəbdə tədris məni qane edirdi. Məktəbin və fənn müəllimlərinin biliklərə yiyələnməyimizdə böyük rolu olub.

**25.** Fakültədə tədris mənim gözlədiyim kimidir. Hələlik elə bir ciddi çətinliklərlə qarşılaşmırıq.

**26.** Həqiqətən də hazırlıqlı mütəxəssis olmadan həyatda uğur qazanmaq mümkün deyil.

**27.** Vətəndə.

**28.** Qəbula hazırlaşanlara tövsiyəm: öyrənməkdən başqa heç nəyə arxalanmayın.

**29.** Sualım: Sənəti seçməkdə sənə ilk müəlliminin köməyi olubmu? Mənim cavabım: İlk müəllimim sənət seçməyimdə mənə yol göstərən birinci şəxsdir.



### RƏ’NA HİDAYƏTLİ

*Xətai rayonu 287 saylı "Zəkalar" liseyinin mə’zunudur. 664.165 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Kamil Hidayətli Bakı məişət kondisionerləri zavodunda mühəndisdir. Anası – Rima Hidayətli işləmir.*



### MƏTİN İBRAHİMOV

*Sumqayıt şəhəri texniki və təbiət elmləri üzrə liseyin mə’zunudur. 660.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Şaiq İbrahimov Sumqayıt şəhəri 28 saylı orta məktəbin müəllimidir. Anası – Məktubə Məmmədova işləmir.*



### TEYMUR QƏHRƏMANOV

*Nərimanov rayonu Özəl türk liseyinin mə’zunudur. 660.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Vaqif Qəhrəmanov Azərbaycan Texniki Universitetində müəllimdir. Anası – Elmira Qəhrəmanova 45 saylı orta məktəbdə tibb bacısıdır.*



### SAMİR HƏSƏNOV

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə’zunudur. 652.499 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Aftandil Həsənov 30 saylı orta məktəbdə kimya müəllimidir. Anası – Səbinə Məmmədova işləmir.*



### FİDAN AĞAYEVA

*Yasamal rayonu 53 saylı orta məktəbin mə’zunudur. 650.833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Əkbər Ağayev Sumqayıt Dövlət Universitetinin professorudur. Anası – Asya Ağayeva işləmir.*



### GÜNAY VERDİYEVA

*Səbayel rayonu 190 saylı orta məktəbin mə’zunudur. 650.002 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Vaqif Sultanlı BDU-nun müəllimidir, filologiya elmləri doktorudur. Anası – Almaz Hüseynova Bakı Ali Pedaqoji Qızlar Seminariyasında müəllimdir.*



### SƏİDƏ QƏHRƏMANOVA

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə’zunudur. 647.501 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 7 nəfərdən ibarətdir. Atası – Firəddin Qəhrəmanov «Ümid» şirkətində gözətçidir. Anası – Zöhrə Qəhrəmanova 106 saylı orta məktəbin müəllimidir.*



### LAMİYƏ VƏLİYEVA

*Nizami rayonu 70 saylı orta məktəbin mə’zunudur. 646.665 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Nizami Vəliyev 1 saylı internat məktəbində işləyir. Anası – İzamila Abdullayeva 70 saylı orta məktəbin müəllimidir.*



### SONA QARAMƏMMƏDLİ

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə’zunudur. 632.499 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Yasin Qaraməmmədli Azərbaycan Dövlət Tele-radio verilişləri şirkətində siyasi icmalçıdır. Anası – Sərvinaz Qaraməmmədli Azərbaycan Ensiklopediyasında makinaçıdır.*



### MURAD İBRAHİMOV

*Nizami rayonu 10 saylı orta məktəbin mə’zunudur. 631.666 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası – Rahim İbrahimov Azərb. Döv. E.T.İ D.M.İ-də mikrobioloqdur. Anası – Lyubov İbrahimova Nizami rayonu 10 saylı orta məktəbdə rus dili müəllimidir.*



**ŞƏBNƏM GÜLGƏZLİ**

*Binəqədi rayonu 283 saylı orta məktəbin mə'zunudur. 630.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Qabil Gülgəzli baytarlıq komitəsində baş idarə rəisidir. Anası – Asya Gülgəzli baytarlıq laboratoriyasında laborantdır.*



**ÜLVİYYƏ ƏLİZADƏ**

*Səbayel rayonu 49 saylı orta məktəbin mə'zunudur. TQDK nəzdnindəki hazırlıq kursunun dinləyicisi olub. 630.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Maarif Əlizadə işləmir. Anası – Nazilə Əlizadə işləmir.*



**NİGAR MİKAYILOVA**

*Səbayel rayonu 7 saylı orta məktəbin mə'zunudur. 629.998 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Rüfət Mikayılov Azərbaycan Elmlər Akademiyasının aparıcı elmi işçisidir. Anası – Gülçöhrə Ağasiyeva neftçilər xəstəxanasında həkimdir.*



**SEVİNC XƏLİLOVA**

*Səbayel rayonu 2 saylı orta texniki və hümanitar elmlər liseyinin mə'zunudur. 629.168 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Əliqulu Xəlilov Nəsrəddin Tusi adına Şamaxı Astrofizika rəsədxanasında kiçik elmi işçidir. Anası – Əzizə Xəlilova Nəsrəddin Tusi adına Şamaxı Astrofizika rəsədxanasında kiçik elmi işçidir.*



**FUAD SƏMƏDOV**

*Sumqayıt şəhəri Özəl türk liseyinin mə'zunudur. 629.168 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Misirxan Səmədov bərbərdir. Anası – Həqiqət Səmədova işləmir.*



**AYTƏN RƏHİMOVA**

*Şəki şəhəri fizika–riyaziyyat və humanitar təmayüllü liseyin mə'zunudur. 629.165 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Elxan Rəhimov Şəki mərkəzi xəstəxanasında həkimdir. Anası – Gülşən Əkbərova Şəki şəhəri 19 saylı orta məktəbin müəllimidir.*



**AZAD QƏHRƏMANOV**

*Əli Bayramlı şəhəri 20 saylı şəhər orta məktəbinin mə'zunudur. 627.498 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – İslam Qəhrəmanov Əli Bayramlı şəhəri 9 saylı orta məktəbdə tarix müəllimidir. Anası – Hüsniyyə Qəhrəmanova Əli Bayramlı şəhər təhsil şö'bəsində mühasibdir.*



**FƏRƏH BAXIŞOVA**

*Nizami rayonu 289 saylı orta məktəb–"Zəngi" liseyinin mə'zunudur. 626.668 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Elxan Baxışov Azərbaycan Dövlət İnşaat Mühəndisləri Universitetinin dosentidir. Anası – Azadə Baxışova 62 saylı orta məktəbin müəllimidir.*



**AQİL ƏBİLOV**

*Sumqayıt şəhəri Özəl türk liseyinin mə'zunudur. 626.667 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Asif Kəlbəliyev 5 saylı poliklinikada uşaq həkimidir. Anası – Gülxar Sərməsov Qubadlı rayon orta məktəbində riyaziyyat müəllimidir.*



**VÜSALƏ ƏLİYEVA**

*Nizami rayonu 238 saylı orta məktəbin mə'zunudur. 625.834 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Əli Əliyev 1 saylı uşaq evində müdir müavinidir. Anası – Minarə Babayeva 59 saylı bağçada tərbiyəçidir.*



**MUSA BABAKİŞİYEV**

*Sumqayıt şəhəri texniki və təbiət elmləri üzrə liseyin mə'zunudur. 625.833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Babarəhim Babakişiyev işləmir. Anası – Vəzifə Babakişiyeva 11 saylı poçt-rabitə şö'bəsində işləyir.*



**BƏHRUZ MƏMMƏDOV**

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə'zunudur. 624.167 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Məhəddin Məmmədov işləmir. Anası – Rə'na Məmmədova işləmir.*



**KƏRİM MEHDİYEV**

*Əli Bayramlı şəhəri 13 saylı şəhər orta məktəbin mə'zunudur. 621.667 balla Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Namaz Mehdiyev işləmir. Anası – Əsmər Hacıyeva Əli-Bayramlı şəhəri 13 saylı orta məktəbdə coğrafiya müəllimidir.*



**NƏRMİN HACIYEVA**

*Xətai rayonu 191 saylı orta məktəbin mə'zunudur. 620.834 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Akif Hacıyev Azərbaycan İnşaat Mühəndisləri Universitetində müəllimdir. Anası – Böyükxanım Hacıyeva 95 saylı orta məktəbin müəllimidir.*



**NAİLƏ MƏMMƏDOVA**

*Xətai rayonu 63 saylı orta məktəbin mə'zunudur. 620.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Qiyas Məmmədov 21 saylı tikinti idarəsində baş texnikdir. Anası – Əzizə Məmmədova 63 saylı orta məktəbin müəllimidir.*



**GÜNEL ƏZİMOVA**

*Şəki şəhəri fizika-riyaziyyat və humanitar təmayüllü liseyin mə'zunudur. 619.169 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Arif Əzimov Şəki şəhər fizika-riyaziyyat və humanitar təmayüllü liseyin direktorudur. Anası – Xuraman Musafayeva Şəki şəhəri Orta Zəyzid kənd orta məktəbinin dərs hissə müdiridir.*



**DİLARƏ QAFAROVA**

*Nərimanov rayonu 258 saylı orta məktəbin mə'zunudur. 618.332 balla Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Qüdrət Qafarov onkoloji dispanserdə baş həkimin müavinidir. Anası – Soltan Qafarova 3 saylı poliklinikada həkimdir.*



**ÜLVİN HƏBİBOVA**

*Suraxanı rayonu 280 saylı orta məktəbin mə'zunudur. 617.499 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Vilayət Həbibov Azərbaycan Su layihə institutunda mühəndisdir. Anası – vəfat edib.*



**FİDAN FEYZULLAYEVA**

*Salyan rayonu Arbatan orta məktəbinin mə'zunudur. 615.001 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Məmmədhəsən Feyzullayev Salyan rayonu 104 saylı peşə liseyinin direktorudur. Anası – Süleymanova Rahilə Salyan rayonu uşaq poliklinikasında həkimdir.*



**ALTAY HƏSƏNOV**

*Binəqədi rayonu 83 saylı orta məktəb-liseyin mə'zunudur. 614.165 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Səhyəddin Həsənov həkimdir. Anası – Tamilla Quliyeva 185 saylı orta məktəbin müəllimidir.*



**TURAL ƏHMƏDOV**

*Yasamal rayonu Avropa liseyinin mə'zunudur.*
*614.165 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Abdullah Əhmədov Azərbaycan Texniki Universitetinin dosentidir.*
*Anası – Şəhla Əhmədova Azərbaycan İnşaat Mühəndisləri Universitetinin baş müəllimidir.*



**VÜSAL RZAYEV**

*Nizami rayonu özəl türk kompüter liseyinin mə'zunudur.*
*611.667 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – İnşalla Rzayev işləmir.*
*Anası – Maynisə Rzayeva işləmir.*



**KÖNÜL AĞALAROVA**

*Nizami rayonu 289 saylı orta məktəb-"Zəngi" liseyinin mə'zunudur.*
*610.001 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Məlikəhməd Ağalarov işləmir.*
*Anası – Püstə Ağalarova 77 saylı ATS-də baş mexanikdir.*



**MÜŞFİQ BƏBİROV**

*Qaradağ rayonu 273 saylı orta məktəbin mə'zunudur.*
*609.999 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 6 nəfərdən ibarətdir.*
*Atası – Fəxrəddin Bəbirov Bakı Dəniz Özülləri zavodunda qaynaqçı işləyir.*
*Anası – Lətifə Bəbirova işləmir.*



**GÜLƏR BAYRAMOVA**

*Suraxanı rayonu 280 saylı orta məktəbin mə'zunudur. TQDK nəzdindəki hazırlıq kursunun dinləyicisi olub.*
*609.167 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Ağalar Bayramov Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin «Səhnə davranışı» kafedrasının dosentidir.*
*Anası – Şamama Şəfiyeva 280 saylı orta məktəbin müəllimidir.*



**TARİYEL MƏMMƏDOV**

*Nizami rayonu 5 saylı kimya-biologiya təmayüllü liseyin mə'zunudur.*
*609.167 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – İmran Məmmədov Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi idarəsində mexanikdir.*
*Anası – Məmmədova Sədaqət işləmir.*



**AYNUR MUXTAROVA**

*Səbayel rayonu 163 saylı orta məktəbin mə'zunudur.*
*607.499 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Vaqif Muxtarov Azərbaycan Elmlər Akademiyasında elmi işçidir.*
*Anası – Rə'na Muxtarova Azərbaycan Dövlət Texniki Universitetində mühəndis-proqramçıdır.*



**ŞƏHLA ZEYNALOVA**

*Nərimanov rayonu 93 saylı orta məktəbin mə'zunudur.*
*607.498 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Əsgər Zeynalov Azərneftyağ istehsalat birliyində əməliyyatçı işləyir.*
*Anası – Bəsti Tağıyeva işləmir.*



**VƏFA ŞIXLI**

*Yasamal rayonu 286 saylı orta məktəbin mə'zunudur.*
*606.668 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 5 nəfərdən ibarətdir.*
*Atası – Şıxı Şıxlı «Emil 15» firmasının direktorudur.*
*Anası – Sevgiladə Şıxlı işləmir.*



**SAMİRƏ İSMAYILOVA**

*Xətai rayonu 95 saylı orta məktəbin mə'zunudur.*
*605.835 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub.*
*Ailələri 4 nəfərdən ibarətdir.*
*Atası – Mübariz İsmayılov İnşaat Mühəndisləri Universitetində dosentdir.*
*Anası – Rəhilə İsmayılova 6 saylı poliklinikada kardioloqdur.*



**GÜLNAR SƏFƏROVA**

*Suraxanı rayonu 280 saylı orta məktəbin mə'zunudur. 605.832 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Qərib Səfərov Bakı Neftayırma zavodunda işləyir. Anası – Rəmziyyə Səfərova işləmir.*



**LEYLA NƏBİYEVA**

*Sumqayıt şəhəri "İste'dad" liseyinin mə'zunudur. 605.001 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Temraz Nəbiyev həkimdir. Anası – Amalya Nəbiyeva işləmir.*



**LEYLA AĞAYEVA**

*Yasamal rayonu 53 saylı orta məktəbin mə'zunudur. 605.001 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Fuad Ağayev Azərbaycan Elmlər Akademiyasının işçisidir. Anası – Sevda Ağayeva 53 saylı orta məktəbin müəllimidir.*



**ƏBÜLFƏZ İSAYEV**

*Yasamal rayonu 20 saylı orta məktəb-liseyin mə'zunudur. 604.168 balla Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Məhərrəm İsayev işləmir. Anası – Sədaqət İsayeva 11 saylı poliklinikada həkimdir.*



**VƏFA SƏLİMOVA**

*Nəsimi rayonu 54 saylı orta məktəbin mə'zunudur. 604.167 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 3 nəfərdən ibarətdir. Atası – Arif Səlimov 19 saylı orta məktəbin müəllimidir. Anası – Firəngiz Səlimova 54 saylı orta məktəbin müəllimidir.*



**AYNUR MUSTAFAYEVA**

*Sumqayıt şəhəri texniki və təbiət elmləri üzrə liseyin mə'zunudur. 602.502 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Firudin Mustafayev Azərkimya Dövlət şirkətinin vitse-prezidentidir. Anası – Şəlalə Mustafayeva işləmir.*



**SAMİR MUSAYEV**

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə'zunudur. 602.501 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Rizvan Musayev "Azəriqazbank"da mühasibdir. Anası – Tovuz Musayeva işləmir.*



**ŞƏFƏQ HƏSƏNOVA**

*Xətai rayonu 263 saylı orta məktəbin mə'zunudur. 602.501 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Rəsul Həsənov işləmir. Anası – Alidə Həsənova işləmir.*



**SÜDABƏ ƏHMƏDOVA**

*Xətai rayonu 191 saylı orta məktəbin mə'zunudur. 602.500 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Etibar Əhmədov Giləzi konserv zavodunda təhcizatçı işləyir. Anası – Qəsibə Əhmədova 8 saylı poliklinikada həkimdir.*



**AYSEL İSMAYILOVA**

*Şəmkir rayonu Bayramlı kənd orta məktəbin mə'zunudur. 602.499 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 6 nəfərdən ibarətdir. Atası – Vidadi İsmayılov Şəmkir rayon elektrik şəbəkəsi idarəsində baş mühasibdir. Anası – Nəhayət Musayeva Şəmkir rayon poçt idarəsində 2 saylı şö'bənin rəisi vəzifəsində işləyir.*



**SAMİRƏ BƏŞİROVA**

*Nizami rayonu 289 saylı orta məktəb-"Zəngi" liseyinin mə'zunudur. 600.833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Yanis Bəşirov işləmir. Anası – Bəyimxanım Hacıyeva Sabunçu rayonu 90 saylı orta məktəbin müəllimidir.*



**İSMAYIL NƏCƏFƏLİYEV**

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə'zunudur. 600.833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – İbrahim Nəcəfəliyev Musa Nağıyev adına xəstəxanada cərrahdır. Anası – Brilyant Nəcəfəliyeva işləmir.*



**SƏRDAR ABDULLAİ**

*Nizami rayonu kimya-biologiya təmayüllü liseyin mə'zunudur. 600.833 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Səlim Abdullai işləmir. Anası – Nəhayət Abdullai işləmir.*



**SOLMAZ HƏMZƏYEVA**

*İsmayıllı rayonu 1 saylı orta məktəbin mə'zunudur. 600.001 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 5 nəfərdən ibarətdir. Atası – Musa Həmzəyev işləmir. Anası – Zahidə Həmzəyeva işləmir.*



**RÜFƏT ZEYNALOV**

*Səbayel rayonu 160 saylı orta məktəbin mə'zunudur. 600.000 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına qəbul olub. Ailələri 4 nəfərdən ibarətdir. Atası – Vaqif Zeynalov işləmir. Anası – Sevda Zeynalova işləmir.*

# V QRUP ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏR



**AYNURƏ RZAYEVA**

*Naxçıvan şəhəri 39 saylı orta məktəbin mə'zunudur. 608.334 balla Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya ixtisasına qəbul olub.*



**SƏBİNƏ RZAYEVA**

*Culfa rayonu 1 saylı orta məktəbin mə'zunudur. 600.833 balla Naxçıvan Dövlət Universitetinin ibtidai təhsilin pedaqogika və metodikası ixtisasına qəbul olub.*

**P.S.**

***Hörmətli oxucular! Sizi qəbul imtahanında 600-dən yuxarı bal toplayan gənclər haqqında əldə etdiyimiz mə'lumatlarla tanış etdik.***

***Ancaq belə gənclərdən bir neçəsi eyni zamanda həm də Türkiyə ali məktəblərinə daxil olub orada təhsil aldıqlarından, bə'ziləri isə bölgə ali məktəblərinə qəbul olduqlarından onlarla əlaqə yarada bilmədik. Buna görə də Sizə onlar barəsində yalnız TQDK-nın kompüter bazasında olan mə'lumatları çatdıra bildik.***

# Hörmətli oxucular!

***Son bir neçə ayda Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına yüzlərlə məktub, teleqram və müraciətlər daxil olmuşdur. Sizə təqdim etdiklərimiz onların yalnız bir qismidir. Bu yazılarda müəlliflərin – abituriyent, valideyn, təhsil işçisi, ümumiyyətlə, müxtəlif yaş və peşə sahiblərinin arzu və istəkləri ifadə olunub. Təəssüf ki, Jurnalın çap imkanları bunların hamısını dərc etməyə yol vermir. Bununla belə biz həmin yazılardan bir çoxunu əsas məzmunlarını saxlamaqla qısa ixtisar və redaktə ilə Sizə təqdim edirik.***

## MƏKTUB. *Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına*

*Hömətli Məleykə xanım!*

Mən həm valideyn, həm də müəllim kimi Sizə müraciət edirəm. İşlədiyim Xətai rayonu 95 saylı məktəbdə uşaqların bilik səviyyəsi çox yüksəkdir. 600-dən yuxarı bal toplayan gənclərdən 5 nəfəri elə bizim məktəbin yetirmələridir. Ümumiyyətlə, bu il məktəbimizin 125 mə’zunundan 72 nəfəri ali məktəblərə qəbul olub. Oğlum Salmanov Rasim də bu il həmin məktəbi bitirib, 580 balla Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə və kredit ixtisasına daxil olub.

Biz bu ilki qəbulda xeyirxahlıq və obyektivliyin bir daha şahidi olduq. İmtahanlar çox ədalətlə keçdi. Validеynlər hamısı razı qaldılar. Biz Prezident Heydər Əliyev cənablarının müdrik rəhbərliyi ilə respublikamızda yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsi işinə böyük qayğı göstərilməsinə çox sevinirik. Bu işdə ali məktəblərə bilikli, bacarıqlı gəncləri seçib qəbul edən Sizin kollektivin də böyük əməyi var.

Sağ olun, Sizə dərin təşəkkürümüzü bildiririk. Sizə işinizdə daha böyük müvəffəqiyyətlər arzulayırıq. Test üsulunu bir daha alqışlayırıq!


Məktub. Bakı şəhəri, İnqilab küçəsi 17, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına.
Hörmətli Məleykə xanım!
Mən həm valideyn, həm də müəllim kimi sizə müraciət edirəm. Mən Xətai rayonundakı 95 saylı orta məktəbdə işləyirəm. Məktəbimizdə uşaqların bilik səviyyəsi çox yuxarıdır. Oğlum Salmanov Rasim də bu il həmin məktəbi bitirib. 580 bal yığaraq Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin maliyyə kredit fakültəsinə daxil olub.
DAXIL OLAN № 1066
SƏNƏD №
Biz bu il qəbul [illegible] xeyirxahlıq və obyektivliyin şahidi olduq. İmtahanlar çox real gedirdi. Valideynlər hamısı razı


idi. Prezidentimiz Heydər Əliyev cənablarının müdrikliyinə inanırıq. Yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsinə sevinirik.
Biz sizə „Sağ ol" deyirik. Öz işinizdə inam və müvəffəqiyyət arzulayırıq. Qəbul komissiyasının bütün üzvlərinə təşəkkürümüzü bildiririk. Test üsulunu bir daha alqışlayırıq.
Valideyn: [imza] Salmanova Rəfiqə.

***Valideyn: Salmanova Rəfiqə, 95 saylı məktəbin müəllimi***

## TELEQRAM. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə*

Mən Kəlbəcər qaçqınıyam. Artıq 8 ilə yaxındır ki, Gəncə şəhərində məskunlaşmışıq. Ailəmizin ilk övladıyam ki, bu il Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının baytarlıq fakültəsinə ödənişli əsasla daxil olmuşam.

Prezidentimizin biz qaçqınlara göstərdiyi qayğı və güzəştlərdən tam razıyıq. Odur ki, öz adımdan və ailə üzvlərimiz adından Sizə minnətdarlığımızı və təşəkkürümüzü çatdırıram. Ulu tanrı Sizlərə yar olsun.


КӘНЧӘ АЗӘРБ ПОЧТАМТ 20/44871 80 23/08 1455=
ТӘЛӘБӘ ГӘБУЛУ ҮЗРӘ ДӨВЛӘТ КОМИССИЈАСЫНЫН СӘДРИ МӘЛЕЈКӘ ХАНЫМ
АББАСЗАДӘЈӘ
АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН ПРЕЗИДЕНТИ ҺЕЙДӘР ӘЛИЈЕВ ЧӘНАБЫНА=
МӘН КӘЛБӘЧӘР ГАЧГЫНЫЈАМ АРТЫГ 8 ИЛӘ ЈАХЫНДЫР КИ КӘНЧӘ ШӘҺӘРИНДӘ
МӘСКУНЛАШМЫШЫГ АИЛӘМИЗИН ИЛК ӨВЛАДЫЙАМ КИ БУ ИЛ АЗӘРБАЈЧАН КӘНД
ТӘСӘРРУФАТЫ АКАДЕМИЈАСЫНЫН БАЈТАРЛЫГ ТӘБАБӘТ ФАКҮЛТӘСИНИН
ӨДӘНИШЛИ БӨЛМӘСИНӘ ДАХИЛ ОЛМУШАМ
ПРЕЗИДЕНТИМИЗИН БИЗ ГАЧГЫНЛАРА КӨСТӘРДИЈИ ГАЈҒЫ ВӘ КҮЗӘШТЛӘРДӘН
ТАМАМИЛӘ РАЗЫЈЫГ ОДУР КИ ӨЗ АДЫМДАН АИЛӘ ҮЗВҮЛӘРИМИЗИН ҺАМЫСЫНЫН
АДЫНДАН СИЗӘ МИННӘТДАРЛЫҒЫМЫЗЫ ВӘ ТӘШӘКҮРҮМҮЗҮ ЧАТДЫРЫРАМ УЛУ ТАНРЫ
СИЗЛӘРӘ ЈАР ОЛСУН=КӘЛБӘЧӘРЛИ ГАЧГЫН ТӘЛӘБӘ САДЫГОВА ПӘРВАНӘ
ШИРИН ГЫЗЫ-

***Kəlbəcərli qaçqın tələbə Sadıqova Pərvanə Şirin qızı***

## MƏKTUB. *Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə*

Mən də bu il qəbul imtahanlarının həqiqətən yüksək səviyyədə keçirilməsinin şahidi oldum. Bir valideyn kimi əmin oldum ki, respublikamızda biliyə düzgün qiymət verilir. Əvvəlki illərdən fərqli olaraq bu il sual kitabçalarının imtahandan sonra abituriyentlərə verilməsi bunu bir daha təsdiq etdi. Bunun üçün Sizə və kollektivinizə öz təşəkkürümü bildirirəm.

***Valideyn: Allahverdiyeva Zenfira***



## MƏKTUB. *Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə*

Çox hörmətli Məleykə xanım! Sizin tələbə qəbulu ilə bağlı gördüyünüz işlər doğrudan da təqdirə layiqdir. Mən Sizin haqqın dərgahında bir mərd azərbaycanlı qadını kimi durmağınız, dayanmağınız qənaətimdə heç də yanılmamışam. Məhz bu haqq-ədalətin qorunması sayəsində oğlum Ömərov Əfəndi Misir oğlu bu il test imtahanını uğurla verərək Mingəçevir Politexnik İnstitutunun I kurs tələbəsi adına layiq görülüb. Bu, Sizin həyatda və işdə tutduğunuz prinsipial mövqeyin nəticəsidir. Bir ana kimi sevincimin həddi-hüdudu yoxdur.

Mən öz ailəm adından tələbə qəbulu sahəsində gördüyünüz çətin və şərəfli işdə Sizə və kollektivinizə müvəffəqiyyətlər arzulayıram.

Sağ olun!



***Hörmətlə: Göycəyeva Tərgül Söyün qızı.***
***Mingəçevir şəhəri C.Əliyev küçəsi 9, mənzil 15.***
***Tel: 6-10-21***

## TELEQRAM. *Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə*


ЖОЖНО АЗӘРБ ПОЧТАМТ 20/19269 57 23/08 1500=

БАКЫ АЗӘРБАЈҸАН РЕСПУБЛИКАСЫ ТӘЛӘБӘ ГӘБУЛУ ҮЗРӘ ДӨВЛӘТ КОМИССИЈАСЫНЫН СӘДРИ МӘЛЕЈКӘ ХАНЫМ АББАСЗАДӘЈӘ=

ҺӨРМӘТЛИ МӘЛЕЈКӘ ХАНЫМ МӘН ШӘКИ ШӘҺӘР САКИНИ ИСМАЈЫЛОВ НАДИР ИДРИС ОҒЛУ БИР ВАЛИДЕЈН КИМИ СИЗӘ ӨЗ ДӘРИН МИННӘТДАРЛЫҒЫМЫ ЧАТДЫРЫРАМ СИЗИН ҺАГГ ВӘ ӘДАЛӘТЛӘ АПАРДЫҒЫНЫЗ ГӘБУЛ ИМТАҺАНЛАРЫНДА МӘНИМ ОҒЛУМ ИСМАЈЫЛОВ ҸАВАНШИР НАДИР ОҒЛУ КӘНД ТӘСӘРРҮФАТЫ АКАДЕМИЈАСЫНА ТӘЛӘБӘ СЫРАЛАРЫНА ГӘБУЛ ЕДИЛМИШДИР СИЗӘ БУ МӘСУЛИЈЈӘТЛИ ИШИНИЗДӘ УҒУРЛАР АРЗУЛАЈЫРЫГ-
5155SННН 1555

Hörmətli Məleykə xanım!

Mən Şəki şəhər sakini - İsmayılov Nadir İdris oğlu bir valideyn kimi Sizə öz dərin minnətdarlığımı çatdırıram. Ədalətlə apardığınız qəbul imtahanlarında mənim oğlum İsmayılov Cavanşir Nadir oğlu Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının tələbələri sırasına qəbul edilmişdir. Sizə bu məs'uliyyətli işinizdə uğurlar arzulayırıq.

## TELEQRAM. *Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri Məleykə xanım Abbaszadəyə*


ХӘБӘРДАРЛЫГЛЫ ТЕЛЕГРАММ БАКЫ 7 ТӘЛӘ ГӘБУЛУ ҮЗРӘ ДӨВЛӘТ КОМИСИЈАСЫНА ТӘЛӘ ГӘБУЛУ ҮЗРӘ ДӨВЛӘТ КОМИСИЈАСЫНЫНСӘДР ӘВӘЗИ МӘЛЕЈКӘ ХАНЫМ АББАСЗАДӘЈӘ=

ҺӨРМӘТЛИ МӘЛЕЈКӘ ХАНЫМ СИЗӘ ВӘ ТАБЕЧИЛИЈИНИЗДӘ ОЛАН ӘМӘКДАШЛАР
А
ТӘЛӘБӘ ГӘБУЛУ ИШЛӘРИНИ ВИЧДАНЛА ОБЈЕКТИВ АПАРДЫГЛАРЫНА ГӨРӘ ӨЗ ДӘРИН МИННӘТДАРЛЫГЫМЫЗЫ БИЛДИРИРИК АЛЛАҺДАН СИЗӘ ҸАН САҒЛЫҒЫ ВӘ УЗУН ӨМҮР ДИЛӘЈИРИК=ҺӨРМӘТЛӘ АЗӘР ДӨВЛӘТ ТИББ УНИВЕРСИТЕТИНИН 1ИНҸИ КУРС ТӘЛӘБӘСИ БАБАЗАДӘ ҺӘСӘН МҮСРӘДДИН ОҒЛУНУН ВАЛИДЕЈНЛӘРИ БАКЫ 118 Е СҮЛЕЈМАНОВ 116 ҺӘН 11-
НОҺ 0 14Һ09Һ00 10Һ02 JJJJJ 1003

1 14/09

DAXİL OLAN № 949
SƏNƏD №
15 • 09 2000 il.

Hörmətli Məleykə xanım!

Sizə və əməkdaşlarınıza tələbə qəbulu işini vicdanla, obyektiv apardığınıza görə öz dərin minnətdarlığımızı bildiririk. Allahdan Sizə can sağlığı və uzun ömür diləyirik.

***Hörmətlə:***
***Azərbaycan Dövlət Tibb Universitetinin I kurs tələbəsi Babazadə Həsən Müsrəddin oğlunun valideynləri***

## MƏKTUB. *Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına*


Tələbə Qəbulu üzrə Dövlət komissiyasına
Mən ailəmizin ali məktəbə qəbul olunan üçüncü övladıyam. Hamımız da tələbə adını yüksək nəticələrlə qazanmışıq. Böyük bacım 4 il əvvəl Bakı Dövlət Universitetinin „Psixologiya" ixtisasına, ortancıl bacım ötən il Azərbaycan Dövlət Dillər Universitetinin „Avropaşünaslıq" ixtisasına, mən isə bu il həmin ali məktəbin „Dilşünaslıq (ingilis dili, sinxron tərcümə)" ixtisasına qəbul olmuşam.
Bu uğurlarımızın kökündə valideynlərimizin bizə uşaqlıqdan aşıladığı elmə, biliyə dərin istək və maraq dayanır. Biz heç vaxt onların amiranə „oxuyun" hökmünü eşitməmişik, ancaq eyni zamanda elə bir mühitdə böyümüşük ki, burada oxumaq, öyrənmək bizim üçün ən maraqlı məşğuliyyət, həyat norması olub. Əlbəttə, valideynlərimizin hədsiz qayğısı, müəllimlərimizin böyük zəhməti öz yerində, - bunlara görə onlara sonsuz dərəcədə minnətdarıq, - ancaq qazanılan biliklər imtahan sınağında dürüst qiymətini alanda haqq-ədalət öz yerini tutur. Bax, məhz buna görə, yə'ni qəbul imtahanlarında obyektivliyi, ədaləti tə'min etdiyinə görə, mən və mənim kimi on minlərlə gənc Tələbə Qəbulu üzrə Dövlət komissiyasına minnətdarıq.
Məhz Dövlət Komissiyasının tələbə qəbulunda yaratdığı belə bir sağlam mühit və qayda-qanun sayəsində biz təhsilin yüksək pilləsinə vəsiqə almışıq.
Ülkər Nəsibbəyli.
Azərbaycan Dillər Universitetinin I kurs tələbəsi

DAXİL OLAN № 1083
SƏNƏD №
10 2000 il.

Mən ailəmizin ali məktəbə qəbul olan üçüncü övladıyam. Hamımız da tələbə adını yüksək nəticələrlə qazanmışıq. Böyük bacım 4 il əvvəl Bakı Dövlət Universitetinin "Psixologiya" ixtisasına, ortancıl bacım ötən il Azərbaycan Dillər Universitetinin "Avropaşünaslıq" ixtisasına, mən isə bu il həmin ali məktəbin "Dilşünaslıq" (ingilis dili, sinxron tərcümə) ixtisasına qəbul olmuşam.

Bu uğurlarımızın kökündə valideynlərimizin bizə elmə, biliyə qarşı uşaqlıqdan aşıladığı dərin istək və maraq dayanır. Biz heç vaxt onların amiranə "oxuyun" hökmünü eşitməmişik, ancaq eyni zamanda elə bir mühitdə böyümüşük ki, burada oxumaq, öyrənmək bizim üçün ən maraqlı məşğuliyyət, alışdığımız adi həyat norması olub. Əlbəttə, valideynlərimizin hədsiz qayğısı, müəllimlərimizin böyük zəhməti öz yerində. Bunlara görə onlara sonsuz dərəcədə minnətdarıq. Ancaq qazanılan biliklər imtahan sınağında qiymətini alanda haqq-ədalət öz yerini tutur. Bax, məhz buna görə , yə'ni qəbul imtahanlarında obyektivliyi, ədaləti tə'min etdiyinə görə, mən və mənim kimi on minlərlə gənc Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına minnətdarıq.

Məhz Dövlət Komissiyasının tələbə qəbulunda yaratdığı belə bir sağlam mühit və qayda-qanun sayəsində biz təhsilin yüksək pilləsinə vəsiqə almışıq.

***Ülkər Nəsibbəyli,***
***Azərbaycan Dillər Universitetinin I kurs tələbəsi***

# DİQQƏT! DİQQƏT! QƏBUL QAYDALARINDA YENİLİKLƏR

***Mə'lumdur ki, ali məktəblərə qəbul olmaq üçün hazırlaşan gəncləri düşündürən, narahat edən məsələlərdən biri də qəbul qaydaları, ondakı dəyişikliklər və yeniliklərdir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Sizin imtahanlara daha səmərəli hazırlaşmanız üçün builki qaydaların təsdiq olunmuş bəzi yeniliklərini nəzərinizə çatdırır.***

**I.** Qəbul qaydalarında Sizin üçün maraqlı olan ən mühüm dəyişiklik bütün ixtisas qruplarında imtahan fənləri siyahısına yeni ümumiləşmiş fənn blokunun daxil edilməsidir. Bu blokdakı testlər Sizin ümumi bilik səviyyənizi qiymətləndirmək məqsədi daşıyır.

Yəqin Siz də razılaşarsınız ki, müasir ali məktəb tələbəsi seçdiyi ixtisasın profilinə uyğun olan fənləri mükəmməl bilməklə yanaşı, digər fənlər üzrə də orta məktəb proqramı daxilində minimal bilik səviyyəsinə, ümumi dünyagörüşünə və hadisələri təhlil etmək bacarığına malik olmalıdır. Sadə test tapşırıqlarını özündə birləşdirən bu blok abituriyentin həmin keyfiyyətlərini üzə çıxarmağa və onun əsas imtahan fənləri ilə yanaşı digər fənləri necə mənimsəməsini müəyyən etməyə yönəlmişdir. Belə ki, ümumiləşmiş fənn blokuna texniki ixtisasları seçən abituriyentlər üçün sosial bilimlərdən, humanitar ixtisasları seçənlər üçün isə riyaziyyat və təbiət fənlərindən test tapşırıqları daxil ediləcəkdir.

Bu il müsabiqədə iştirak etmək üçün tələb olunan nisbi bal məhdudiyyəti yeni daxil edilən ümumiləşmiş fənn blokuna aid edilməyəcək. Bununla belə, bu suallara düzgün cavab verməklə abituriyent öz balını artıracaq və təbii ki, bu da onun qəbul olmaq şansını yüksəldəcəkdir.

Yeni fənn bloku ilə bağlı metodiki materiallar, test tapşırıq nümunələri jurnalımızın gələcək saylarında Sizə təqdim olunacaqdır.

**II.** Ali təhsil müəssisələri və ictimaiyyətin rəyi nəzərə alınaraq ötən il V ixtisas qrupunun U altqrupunda olan idarəetmə və biznes ixtisasları II ixtisas qrupuna keçirilmişdir.

**III.** Bütün ixtisas qruplarına yeni fənn blokunun salınması ilə əlaqədar olaraq imtahan fənlərinin çəki əmsallarında da müəyyən dəyişikliklər aparılmışdır. Onlar aşağıdakı cədvəldə təqdim olunur.

### İMTAHAN FƏNLƏRİ VƏ ONLARIN ALTQRUPLAR ÜZRƏ ÇƏKİ ƏMSALLARI

| İMTAHAN FƏNLƏRİ | İXTİSAS QRUPLARI, ALTQRUPLAR VƏ MÜVAFİQ ÇƏKİ ƏMSALLARI | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | I QRUP | | II QRUP | III QRUP | | IV QRUP | V QRUP |
| | *RF* | *RK* | *IC* | *DT* | *XH* | *TK* | *SP* |
| *Ana dili və ədəbiyyat* | 1 | 1 | 1 | 2 | 1.5 | 1 | 2 |
| *Riyaziyyat* | 2.5 | 2.5 | 2.5 | | | | 2 |
| *Fizika* | 2 | 1 | | | | 1.5 | |
| *Kimya* | 1 | 2 | | | | 2 | |
| *Biologiya* | | | | | | 2 | |
| *Tarix* | | | | 2 | 1.5 | | 1.5 |
| *Coğrafiya* | | | 2 | 1.5 | 1.5 | | |
| *Xarici dil* | | | 1 | 1 | 2 | | 1 |
| *Ümumiləşmiş fənn bloku* | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 |

**Altqrupların adları:** *RF – riyaziyyat, fizika, mühəndislik, me'marlıq və bədii layihələndirmə ixtisasları; RK – kimya-texnoloji ixtisaslar; IC – iqtisad, idarəetmə və coğrafiya ixtisasları; DT – dil, filologiya, tarix, hüquq, incəsənət və musiqi ixtisasları; XH – xarici dillər və beynəlxalq əlaqələr; TK – tibb, kimya, biologiya və idman ixtisasları; SP – sosiologiya, pedaqogika, psixologiya və ilkin hərbi hazırlıq ixtisasları.*

**IV.** Xüsusi qabiliyyət imtahanı tələb edən me'marlıq və bədii layihələndirmə ixtisasları 1-ci qrupun RF altqrupuna, incəsənət və musiqi ixtisasları 3-cü qrupun DT altqrupuna, idman ixtisası 4-cü qrupun TK altqrupuna, ilkin hərbi hazırlıq ixtisası isə 5-ci qrupun SP altqrupuna daxil edilmişdir. Bu ixtisasları seçən abituriyentlər müvafiq altqruplara aid olan fənlərdən test imtahanı verməklə yanaşı, ixtisasın profili üzrə qabiliyyət imtahanı da verirlər.

Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslara hazırlaşan abituriyentlərin nəzərinə çatdırırıq ki, müsabiqədə iştirak etmək üçün ötən ildən fərqli olaraq bu il bütün imtahan fənlərinə (ümumiləşmiş fənn bloku istisna olmaqla) nisbi bal məhdudiyyəti qoyulacaq. Bununla yanaşı qabiliyyət imtahanının nəticələri balla qiymətləndirilən musiqi, incəsənət və rəngkarlıq ixtisaslarını seçən abituriyentlər müsabiqədə iştirak etmək üçün qabiliyyət imtahanından müvəffəq qiymət almalı və onların ümumi test balları 100-dən az olmamalıdır.

***«Abituriyent» jurnalı qəbulla bağlı hər bir yenilik və dəyişiklik barədə mə'lumatları, habelə Sizin hazırlığınıza kömək edən bütün materialları vaxtlı-vaxtında Sizə çatdıracaqdır.***

# «ABİTURİYENT» HAZIRLIQ KURSUNUN UĞURLARI

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəzdindəki «Abituriyent» hazırlıq kursu tədris-metodiki fəaliyyətlə məşğul olan bir strukturdur. Hazırlıq kursuna belə bir səlahiyyət Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 12 avqust 1998-ci il tarixli qərarı və D-222 saylı şəhadətnaməsi ilə verilmişdir.

Kursun məqsədi ümumtəhsil məktəblərinin yuxarı sinif şagird və mə'zunlarını ali və orta ixtisas təhsili məktəblərinə qəbul imtahanlarına hazırlaşdırmaqdır. Bununla bərabər dinləyicilər təhsil müddətində test üsulu ilə imtahanların texnologiyası ilə, qəbul zamanı istifadə olunan texniki sənədlərlə, «Abituriyentin ərizəsi» və «Cavab kartı»nın doldurulması, seçilmiş ixtisasların və digər mə'lumatların kodlaşdırılması qaydaları ilə də yaxından tanış edilirlər. Mütəmadi olaraq sınaq imtahanları keçirilir.

«Abituriyent» hazırlıq kursunda əgər 1997-1998-ci tədris ilində 86 nəfər, 1998-1999-cu tədris ilində 203 nəfər məktəb mə'zunu və yuxarı sinif şagirdi məşğul olmuşdusa, ötən tədris ilində onun dinləyicilərinin sayı 366 nəfərə çatmışdır. Bunlardan ali məktəblərə qəbula 316 nəfər ərizə vermişdir (49 nəfər X sinif şagirdi olduğuna görə, 4 nəfər isə namə'lum səbəblərə görə sənəd verməmişdir). İmtahanda iştirak edənlərdən 215 nəfəri respublikanın müxtəlif ali məktəblərinə, o cümlədən 46 nəfəri Azərbaycan Dövlət Tibb Universitetinə, 49 nəfəri isə Bakı Dövlət Universitetinə daxil olmuşdur. Dinləyicilərdən 22 nəfəri qəbulda 500-dən yuxarı , iki nəfəri isə 600-dən yuxarı bal toplamışdır. Ülviyyə Əlizadə 630,832, Gülər Bayramova isə 609,167 balla Azərbaycan Dövlət Tibb Universitetinin müalicə işi ixtisasına tələbə vəsiqəsi almışlar. 8 nəfər dinləyicinin qəbul imtahanında ayrı-ayrı fənlər üzrə nisbi balı 90-dan yuxarı olmuşdur. 214 nəfər dinləyici-abituriyentin (67,72 faiz) balı 250-dən yuxarı olmuşdur. Ali məktəblərə qəbul olma göstəricisi V qrup üzrə 100%, II qrup üzrə 95,24%, I qrup üzrə 94,12% , ümumi qəbul olma isə 68,04% təşkil etmişdir.

Cari tədris ilində hazırlıq kursunda məşğələlər başlanıb. Hazırda kursda 400-ə qədər dinləyici təhsil alır. Ancaq kursa dinləyici qəbulu davam etməkdədir. Təşkil edilməkdə olan yeni qruplarda dərslər noyabrın 1-dən başlayacaqdır.

Məşğələlər bütün imtahan fənləri üzrə ali və orta ixtisas təhsili məktəblərinə qəbul proqramları çərçivəsində Azərbaycan və rus dillərində aparılır. Dərslər ali və orta məktəblərdə çalışan, eyni zamanda TQDK-nın nəzdindəki elmi-metodiki seminarların üzvü olan yüksək ixtisaslı alim və müəllimlər tərəfindən tədris edilir. Ümumtəhsil məktəblərinin şagirdləri üçün məşğələlər məktəbdəki əsas təhsil vaxtı nəzərə alınmaqla oradakı dərslərdən sonra təşkil edilir.

Əziz gənclər! «Abituriyent» hazırlıq kursunun dinləyicisi olmaq, böyük əzmkarlıqla çalışmaq, oxumaq və öyrənmək Sizin ali məktəbə qəbul olmaq şansınızı artırır. Kursa nə qədər tez və vaxtında yazılsanız, fənlər üzrə qəbul proqramlarındakı mövzuları bir o qədər tam mənimsəyər və deməli, ali məktəbə qəbul olmaq imkanınızı bir o qədər reallaşdırmış olarsınız.

***«Abituriyent» hazırlıq***
***kursunun rəhbəri,***
***prof. E.Məmmədov***

# ABİTURİYENT

## Redaksiya şurası


***M.M.Abbaszadə, N.Ə.Babayev, V.M.Bağırov, F.Ş.Bədəlbəyli, A.B.Cahangirov, M.A.Dəmirli, A.Q.Əbiyev, M.N.Ələsgərov, Ə.T.Əmiraslanov, E.N.Əmirbəyov, N.M.Xudiyev, A.M.Məhərrəmov, M.C.Mərdanov.***


## Redaksiya hey'əti


A.H.Bağırov (baş redaktor), R.H.Novruzov (baş redaktor müavini), H.H.Kazımov (məs'ul katib), F.A.Atamov, İ.A.Babayev, T.A.Bədəlov, R.H.Hüseynov, Ç.C.Xəlilov, Ə.Q.Quliyev, M.N.Qurbanov, V.R.Misirov, M.Ə.Nuriyev, Ç.İ.Rüstəmov (korrektor).

***Üslubçu: prof. İ.O.Məmmədov***

***Kompüter və dizayn: O.Y.Şelaginov, M.Ə.Bədəlov, İ.İ.Cəfərov.***


Redaksiyanın ünvanı: 370078, Bakı şəhəri, İnqilab küçəsi, 17.
Telefon: 40-30-09

Jurnal Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.
(Lisenziya B 171, 18 fevral 1999)
Jurnaldakı materiallar redaksiyaya ali məktəblər tərəfindən təqdim olunmuşdur.


© TQDK - «Abituriyent»

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəsmi razılığı olmadan jurnalın və ya onun hər hansı hissəsinin təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması QADAĞANDIR!


Çapa imzalanmışdır 20.10.2000, tiraj 500
Jurnal redaksiyada kompüterdə yığılmış, səhifələnmiş və TQDK-nın mətbəəsində çap edilmişdir